# XƏZƏR XƏBƏR

## KHAZAR REVIEW

№ 440 Iyun 2024



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





# YOLUMUZ ŞUŞAYADIR








# JOURNEYING TOWARDS SHUSHA



(Ardı səh.6-da)

(To be continued page 6)

# İÇİNDƏKİLƏR

Yolumuz Şuşayadır ....6
*Zərifə Əliyeva*. Doğma Xəzərə qayıdış və... Şuşaya səfər....10
*Firəngiz Nəsirova*. Xəzərin tarix salnaməsinə yazılacaq ....12
*Aytac Misgərli*. Şuşa məğrur görünürdü... ....13
*Kəmalə Əsgərova*. Bizim evi tapa bilmədim... ....14
*Mədinə Karahan*. Cıdır düzündə: əlimizdə Bayrağımız, qəlbimizdə Vətən sevgisi....15
*Mirşərəf Təhməzov*. Səfər mənə yeni dəyərli insanları tapmaqda vəsilə oldu....16
Xəzər Universiteti "Times Higher Education Impact Rankings 2024" reytinq cədvəlində yer alıb ..17
Tələbələrin dərsdənkənar uğurlarının mükafatlandırılması mərasimi ....18
Türk Dünyası Rəqəmsal Vətəndaşlıq Layihəsinin (TUDVA) sertifikatları tələbələrə təqdim edilib....20
Ülkər İsayeva və Hamlet İsaxanlının birgə ərsəyə gətirdiyi fəsil Springer Nature tərəfindən çap olunmuş "Suicidal Behavior in Muslim Majority Countries" kitabında ....21
Prof.Akad. Hamlet İsaxanlı Ankarada keçirilən Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin Baş Məclisinin yeddinci toplantısında ....23
"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Sənət və təbiət münasibətləri: meşəyə insan gəlir!" adlı dəyirmi masa ....26
ERASMUS+ ECAR layihəsi çərçivəsində təlim....30
Xəzər Universitetində Beynəlxalq Mədəniyyət günü ....32
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....36
*Hamlet İsaxanlı*. Şahmat ehtirası ....40
Prof.Akad. Hamlet İsaxanlı Nobel qardaşlarının yaratdığı məktəbin yubileyində ....50
Tarix və arxeologiya departamenti müəlliminin kitabı İranda nəşr edilib ....53
Vilyam Şekspirin 460 illik yubileyinə həsr olunmuş tədbir ....54
Xəzər Universiteti tələbələrinin Azərbaycan dilinə tərcümə etdiyi Litva filmi "Ustad və Tatyana" nümayiş etdirilib....56
Qazaxıstanlı qonaqlar Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunda....57
Xəzər Universitetində Elmi - Tədqiqat İnstitutunun açılışı ....59
"Qoşulmama Hərəkatı Gənclər Təşkilatında Birlik mozaikası: Afrika Gününün qeyd edilməsi" adlı tədbir ....61
Uyğur yazar və türkiyəli alimlə görüş ....65
Türk dünyasının Nobel mükafatçısı Prof. Dr. Aziz Sancarla görüş ....68
Naxçıvan Dövlət Universiteti xəbərləri....70
"Xəzər"in əcnəbi tələbəsi ERASMUS Tələbə Şəbəkəsinin Umumi Assambleya görüşündə ....74
"Xəzər"in beynəlxalq əlaqələri....75

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində** mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**Journeying Towards Shusha** ....................6
*Zarifa Aliyeva*. **Homecoming to Khazar and Journey to Shusha** (*in Azerbaijani*)....................10
*Firangiz Nasirova*. **Journey to Shusha to be Etched in Khazar's Historical Annals** (*in Azerbaijani*) ....................12
*Aytaj Misgarli*. **Shusha Stood Majestic** (*in Azerbaijani*)....................13
*Kamala Asgarova*. **I Couldn`t Find Our Home** (*in Azerbaijani*) ....................14
*Madina Karahan*. **On Jıdır Plain: Our Flag Held High, Our Hearts Overflowing with Homeland Love** (*in Azerbaijani*)....................15
*Mirsharaf Tahmazov*.**The Journey Provided an Opportunity to Meet with NewValuable People** (*in Azerbaijani*) ....................16
**Khazar University in "Times Higher Education Impact Rankings 2024"** ....................17
**Students Honored at Extracurricular Achievement Awards Ceremony** ....................18
**Students Receive Certificates for the Turkish World Digital Citizenship Project (TUDVA)** ....................20
**Chapter Co-authored by Ulker Isayeva and Hamlet Isakhanli Published in the Book "Suicidal Behavior in Muslim Majority Countries" by Springer Nature**....................21
**Prof. Acad. Hamlet Isakhanlı Attends VII General Assembly of Union of National Academies of Sciences of the Turkic World in Ankara**....................23
**Round Table on "Art and Nature Relations: Man Comes to the Forest!" Held as Part of "Year of Solidarity for the Green World"** ....................26
**Training within ERASMUS+ ECAR Project**....................30
**International Culture Day at Khazar University**....................32
**News of the Institute of ANAS Named after Nizami** (*in Azerbaijani*) ....................36
*Hamlet Isakhanli*. **Passion for Chess** (*in Azerbaijani*)....................40
**Prof. Acad. Hamlet Isakhanlı Attends Anniversary of Nobel Brothers' Founded School**....................50
**History and Archeology Department Lecturer's Book Published in Iran** ....................53
**Event Dedicated to the 460th Anniversary of William Shakespeare**....................54
**Lithuanian Film "Master and Tatyana" Translated into Azerbaijani by Khazar University Students Screened** ....................56
**Guests from Kazakhstan at Khazar University's Mevlana Institute for Literary and Philosophical Studies** ....................57
**Opening of Scientific Research Institute at Khazar University**....................59
**Mosaic of Unity in the Non-Aligned Movement Youth Organization: Africa Day Celebration Event Held**....................61
**Meeting with Uyghur Writer and Turkish Scientist** ....................65
**Meeting with Prof. Dr. Aziz Sancar, First Nobel Laureate from the Turkish World** ....................68
**Nakhchivan State University News**....................70
**Khazar University International Student in Erasmus Student Network General Assembly**....................74

It has been published since January 1995

**Founder**:
Khazar University

**Editor-in-chief**:
Hamlet Isakhanli

**Associate editor**:
Alirza Balayev

**Editorial Secretary:**
Valeh Mirza

**Photo**:
Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

# YOLUMUZ ŞUŞAYADIR

# JOURNEYING TOWARDS SHUSHA



İyunun 1-2-də Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə universitet rəhbərliyi, əməkdaşlar, məzunlar Azərbaycanın incisi sayılan Şuşaya səfər ediblər. Səfər proqramı çərçivəsində Cıdır düzü, Səməd bəy Mehmandarovların malikanəsi, Yuxarı Gövhərağa məscidi, Molla Pənah Vaqifin məqbərə kompleksi, Şuşa qalası, Xan qızı Natəvanın ev muzeyi, Bülbülün ev muzeyi ziyarət edilib.

From June 1-2, Khazar University's Career and Alumni Center organized a visit to Shusha, often described as the pearl of Azerbaijan. University management, staff, and alumni participated in the tour, which included visits to cultural landmarks such as the Jidir Plain, Samad bey Mehmandarov's mansion, Yukhari Govhar Agha Mosque, Mausoleum Complex of Molla Panah Vagif, Shusha Castle, Khan's daughter Natavan's House Museum, and Bulbul's House Museum.



Səfər zamanı Xəzərin əməkdaşları Firəngiz Nəsirova, aşıq Ramin Qarayev və Mehdi Kiyasaftarın ad günləri də qeyd olundu.

Səfərin ikinci günü Şuşa şəhərindəki "Qarabağ" hotelinin konfrans salonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının Azərbaycanın və Türkiyənin ictimai-siyasi xadimi, jurnalist, pedaqoq və yazıçı Əhməd bəy Ağaoğlunun həyatı və ədəbi-ictimai fəaliyyəti haqqında "Böyük narahat adam" adlı elmi seminarı baş tutub.

Elmi seminarı giriş sözü ilə açan Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova Prof.Akad. Hamlet İsaxanlının XX əsr Azərbaycan ədəbi-ictimai həyatında mühüm rolu olan şəxsiyyətlərimiz haqqında apardığı araşdırmalardan qısaca bəhs edib. Deyib ki, bu araşdırmalar arasında önəmli yer tutan şəxsiyyətlərdən biri də Şuşa şəhərində dünyaya göz açan böyük ictimai xadim Əhməd bəy Ağaoğlu olub.

Sonra söz elmi seminarın əsas məruzəçisi Hamlet İsaxanlıya verilib. O, XX əsr Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, yazıçı-publisist, siyasətçi Əhməd bəy Ağaoğlunun Azərbaycandakı və Türkiyədəki ictimai-siyasi fəaliyyətindən, son dərəcə zəngin və gərgin həyat yolundan, xalqın gələcəyi üçün daim narahat olan ziyalı ruhundan bəhs edib.

*(Ardı səh.8-də)*



*Firəngiz Nəsirova, Hamlet İsaxanlı*



*Aşıq Ramin Qarayev*

During the visit, the birthday of Khazar University employees - Firangiz Nasirova, Ashuq Ramin Garayev and Mehdi Kiyasaftar were also celebrated.

On June 2, 2024, the second day of the visit, a scientific seminar titled "The Great Worried Man" was conducted by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees. The seminar focused on the life, literary contributions, and social activities of Ahmed Bey Agaoglu, a prominent social and political figure in Azerbaijan and Türkiye, journalist, educator, and writer. The seminar took place at the conference hall of the "Garabag" hotel in Shusha.



*Mehdi Kiyasaftar*

Assoc. Prof. Dilbar Zeynalova, the head of the De-

*(To be continued page 8)*






*Dilbər Zeynalova*

Məruzəçi, eyni zamanda, Əhməd bəyin bir redaktor, müxbir, qurucu, ictimai təşkilat rəhbəri, millət vəkili, həm də bir müxalifətçi kimi yaşayıb yaratmasından, onun Azərbaycan və Türkiyə mühitini, problemlərini eyni dərəcədə əhatə edən əsərlərindən danışıb. Natiq Əhməd bəy Ağaoğluna həsr olunmuş və onun biblioqrafiyasını əhatə edən "Böyük narahat adam" kitabından geniş bəhs edib.

Sonra söz Ə.Ağaoğlunun Türkiyə mühitindəki fəaliyyətinə həsr olunmuş dissertasiyanın və sözügedən kitabın həmmüəllifi olan (Hamlet İsaxanlı ilə birlikdə) Dillər və ədəbiyyatlar department of Languages and Literatures, who opened the scientific seminar with an introduction, briefly spoke about Hamlet Isakhanli's studies on influential figures in Azerbaijan's literary and social circles during the 20th century. She highlighted Ahmed Bey Agaoglu as a significant figure, a great public figure who opened his eyes to the world in the city of Shusha.

Then the floor was given to Hamlet Isakhanli, the keynote speaker of the scientific seminar. He spoke about the social and political endeavors of Ahmed Bey Agaoglu, a prominent voice in 20th century Azerbaijani public discourse. H. Isakhanli elaborated on Ahmed Bey Agaoglu's dynamic life journey and intellectual vigor, deeply concerned with the future of his people.








tamentinin müəllimi Dr. Mədinə Karahana verilib. O, çoxşaxəli yaradıcılığa malik olan böyük türkçü Ə. Ağaoğlunun biblioqrafiyasını hazırlamağın məsuliyyətindən, bu irsin zənginliyindən ətraflı söz açıb.

Sonda Hamlet İsaxanlı seminar iştirakçılarının suallarını cavablandırıb.

He also covered his roles as an editor, journalist, founder of organizations, parliamentarian, and opposition figure, emphasizing his works that addressed issues in both Azerbaijan and Türkiye. Hamlry Isakhanli extensively discussed the book "The Great Worried Man," dedicated to Ahmed Bey Agaoglu and encompassing his bibliography. Following H. Isakhanli, Dr. Madina Karahan, a lecturer in the Department of Languages and Literatures and co-author of a dissertation on A. Agaoglu's activities in Türkiye, addressed the audience. She provided detailed insights into the responsibilities involved in compiling A. Agaoglu's bibliography, highlighting his diverse creative output and the richness of his legacy.

The seminar concluded with Hamlet Isakhanli answering questions from the participants.






# SƏFƏR TƏƏSSÜRATLARI

## DOĞMA XƏZƏRƏ QAYIDIŞ VƏ... ŞUŞAYA SƏFƏR

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzində işləmək üçün dəvət aldım. Bir xeyli götür-qoy etdikdən sonra razılaşdım. Necə olsa da, 44 illik ömrümün 23 ilini Xəzərdə keçirmiş bir insanam. Xəzərdə təhsil almışam, ilk iş yerim də ora olub. Xəzər mənim üçün çox doğmadır; ata ocağı sayılır.

İşə başlar-başlamaz ilk vəzifəm Mərkəzin fəaliyyət planını hazırlamaq oldu. Əlbəttə ki, görüləcək işlər, məqsəd və hədəflər çox idi: təhsilalanları və məzunları peşəkar iş həyatına hazırlamaq; onların şəxsi və karyera inkişaflarına dəstək olmaq; işəgötürənlərlə sıx əməkdaşlıqlar quraraq, təhsil alanlara və məzunlara təcrübə və iş imkanları yaratmaq; məzunların məlumatlar bazasını qurmaq; universitetlə məzunlar arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək və s. Lakin əsas missiyamın məzunları yenidən "qazanaraq", universitet həyatına cəlb etmək olduğunu gözəl anlayırdım. Axı universitetin təsisçisi Hamlet müəllim çox böyük çətinliklərlə, əziyyətlə qurduğu məkanın hər küncündə onları görmək istəyir. Hətta qulağıma Hamlet müəllimin belə bir kəlməsi çatmışdı: "İstəyirəm ki, koridorda gəzəndə universitetin bütün departament və mərkəzlərindən məzunlarımın çıxdığını görüm".

Təxminən yarım ay işlədikdən sonra bütün məzunların sevimlisi və onların ən böyük dostu Hamlet müəllimlə görüşə getdim. Görəcəyim işlər barədə söhbət açdım, onun ideya və təkliflərini dinlədim, gözəl bir fikir mübadiləsi apardıq. Bir xeyli müzakirələrdən sonra: "İstəyirəm məzunlarla Şuşa səfəri təşkil edim" dedim. O da cavabında: "Nə gözəl! Heç mən də Şuşada olmamışam!" dedi. Sözün düzü, heç bu cavabı gözləmirdim. Bu cavabdan ilhamlanaraq, səfər haqqında ciddi düşünməyə başladım…

Əvvəlcə məqsədimiz səfəri məzunlar üçün təşkil etmək olsa da, xəbəri eşidib bizə qoşulmaq istəyən əməkdaşlara da "yox" deyə bilmədik.

01 iyun, 2024-cü il. Saat 05:30. Səfərə gedən hər kəs Xəzər Universitetinin qarşısında toplaşmışdı. Nə qədər həyəcanlı, həm də sevincli olduqlarını yuxusuz gözlərindən belə hiss etmək olurdu. Gedənlər arasında universitet rəhbərliyi, əməkdaşlar, müxtəlif illərin məzunları, qonaqlar, hətta məzunların gül qoxulu övladları da var idi. Ən balaca səyyahımız isə məzunlarımız Cavid və Aysel Qurbanovlar cütlüyünün 2 yaşlı qızı Leyla idi. Zəfər yolunu getdiyini sanki anlayırdı bu balaca qızcığaz. Uzun yola baxmayaraq nə valideynlərinə, nə də ki digər yolçulara narahatçılıq yaratmadı Leyla balamız.

Bələdçimiz Dəyanətin gitaradakı gözəl ifası, xəzərlilərin şən-məzəli universitet əhvalatları, Hamlet müəllim, İsaxan müəllim və Dilbər xanımın ifasındakı şeirlər, aşıq Ramin Qarayevin sazda ifası neçə saatlıq uzun yolu bizə heç hiss etdirmədi. Yol boyu hamı dedi-güldü, əyləndi.

Nəhayət ki, bir çoxumuzun heç zaman görmədiyi, amma hər zaman xəyal etdiyi müqəddəs şəhərə - Şuşaya çatdıq. Əminəm ki, hamının ilk olaraq ağlına ayaq basdığımız torpağın uğrunda canından keçən şəhidlərimiz gəldi. Bir çoxumuzu kədər boğdu. Qəhərləndik. Sözlər, kəlmələr boğazımızda düyünləndi. Hamımız qarışıq duyğular içindəydik: həm sevinc, həm də kədər.

Səfərin ilk günündə Hamlet müəllim, bir sıra əməkdaş və məzun Azərbaycanın qədim mədəniyyət mərkəzi, ədəbi-musiqili məclislərin, musiqi şənliklərinin keçirildiyi yerə - Cıdır düzünə yollandılar. Hətta orada balaca bir şeir məclisi də qurdular.

Çox keçmədi bir yağış yağdı ki, gəl görəsən! Tut ucundan göyə çıx! Anidən tutulduqları yağışdan qorunmaq

üçün həlak olduğu qayalı təpədə ucaldılan görkəmli Azərbaycan şairi və siyasi xadimi Molla Pənah Vaqifin məqbərəsinə sığındılar. Şeir-musiqi məclisini orada da davam etdirdilər. Aşıq Ramin oxudu, Hamlet müəllim, İsaxan müəllim şeir dedilər. Yağışın kəsmədiyini, lakin hotelə dönməli olduqlarını bilən Hamlet müəllim, Vaqifin "Hayıf ki, yoxdur" qoşmasından bir bəndini imrpovizə edərək:

*"Yenə yada düşdü bizim sənəmlər,*
*Getməyin havası, hayıf ki, yoxdur!"*
deyərək, orada olan hər kəsin gülüşünə səbəb oldu.

İş elə gətirdi ki, Xəzər Universitetinin üç əməkdaşının doğum günü məhz bu səfərə təsadüf etdi. Əlbəttə ki, tədarükümüzü əvvəlcədən görmüşdük. Axşam yeməyindən sonra Xəzərin qocaman müəllimi Firəngiz xanım, aşıq Ramin və Mehdi müəllimə sürpriz doğum günü şənliyi təşkil etdik. Şamlar üfürüldü, tortlar kəsildi, hədiyyələr verildi. Doğum gününü qeyd etdiyimiz güneyli soydaşımız Mexanika departamentinin müdiri Mehdi Kiyasaftar Şuşa təəssüratlarını paylaşarkən belə söylədi: "Ad günümdə əziz Şuşada olmaq mənim üçün ən böyük xoşbəxtlikdir. Çox təşəkkür edirəm".



*Zərifə Əliyeva* *Əli Mərdəliyev*

Hələ Bakıda ikən Şuşa səfəri xəbərini eşidən Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova: "Zərifə, bəlkə orada Hamlet müəllimin təqdimatında Şuşada dünyaya göz açan Əhməd bəy Ağaoğluna həsr olunmuş bir tədbir təşkil olunsun?" demişdi.

Səfərin ikinci günü, iyunun 2-də təmir-bərpa və yenidənqurma işləri həyata keçirildikdən sonra müasir səviyyəyə çatdırılan, yerləşdiyimiz "Qarabağ" hotelinin konfrans salonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının Azərbaycanın və Türkiyənin ictimai-siyasi xadimi, jurnalist, pedaqoq və yazıçı Əhməd bəy Ağaoğlunun həyatı və ədəbi-ictimai fəaliyyəti haqqında "Böyük narahat adam" adlı elmi seminarı baş tutdu. Seminarın adı heç də təsadüfi seçilməmişdi. "Böyük narahat adam" ifadəsi həm haqqında məruzə olunan, həm də məruzəçini çox dəqiq ifadə edirdi.

Unudulmaz səfər çərçivəsində Cıdır düzü, Molla Pənah Vaqifin Məqbərə Kompleksi, Köndələn Su Anbarı, Gövhər Ağa Məscidi, Mehmandarovların Malikanəsi, Üzeyir Hacıbəylinin heykəli, Bülbülün Ev Muzeyi, Füzuli hava limanı ziyarət olundu.

Hər birimiz ayaq basdığımız torpaqlar uğrunda canından keçən şəhidlərimizin ruhları qarşısında baş əyirik. Bizimlə səfərdə iştirak edən İkinci Qarabağ müharibəsi iştirakçısı, "Vətən müharibəsi iştirakçısı", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunan Xəzər Universitetinin 2016-2020-ci illər məzunu, fəxrimiz qazi Əli Mərdəliyevin timsalında bütün qazilərimizə Allahdan şəfa və uzun sağlam ömür diləyirik.

**Zərifə Əliyeva,**
*Karyera və Məzunlar Mərkəzinin direktoru,*
*Xəzər Universitetinin məzunu*

# XƏZƏRİN TARİX SALNAMƏSİNƏ YAZILACAQ

Zərifə xanım "Şuşaya gedirik" deyəndə həm sevindim, həm də kədərləndim. Yaşıdlarım kimi başımda bir sual oyandı: "Görəsən, bu yolu dəf edə bilərəmmi?" Amma sonra tərəddüd etdiyimə peşiman oldum, "gedirəm" dedim. Heç də yanılmadım. Unudulmaz 2 gün ömrümün ən mənalı günlərinə çevrildi.

"Uzun yoldur Şuşa yolu" deyirdilər. Mənim fikrimcə, uzun yolu, baxır, kiminlə gedirsən. Mən bilirdim, o yerdə ki, Xəzərin kollektivi var, bütün uzun yollar qısa olacaq. Belə də oldu. Əvvəlcə elan etdilər ki, kim bu səyahətdə fəal olsa, onu bahalı hədiyyə gözləyir. Bu elan kifayət oldu. Bəh...Bəh... Oxuyan kim, şeir deyən kim, rəqs edən kim, gitara, saz çalan kim, məzəli, yumorlu əhvalatlar danışan kim. Daha şeir söyləyənləri demirəm, ilhama gəlmişdi hamı.



*Firəngiz Nəsirova*

Şuşaya Zəfər yolu ilə gedirdik. Tarixçimiz Roza xanım Füzuli rayonu, onun ətrafında viranə qalan kəndlərdən danışdı. Hələ 1968-1970-ci illərdə arxeoloji ekspedisiyada Prof. Qüdrət İsmayılzadənin başçılığı altında Qaraköpəktəpədə, Azıx mağarasında aparılan arxeoloji qazıntılardan məlumat verdi.

Yol çox rahat idi, ancaq ətrafda erməni vandallarının törətdiyi dağıntıları gördükcə özümü saxlaya bilmirdim, istər-istəməz gözlərim dolurdu. Böyük oğlum Pərviz hər iki Qarabağ müharibəsində həkim kimi iştirak edib. Onun xatirələri də yadıma düşdü.

Zəfər yolu ən müasir tikinti materialları ilə inşa edilmiş rahat bir yoldur. Ancaq dolayları da var. Belə qısa müddətdə dağları yara-yara möhtəşəm dolayları tikmək və xalqın istifadəsinə vermək böyük qəhrəmanlıq sayılır. Dolayları keçdikcə Vətən oğullarının bu yollardakı döyüşlərindən, qələbəsindən danışırdıq. Mən əmin idim ki, avtobusda əyləşən hər kəsin bir yaxını, doğması bu müharibədə döyüşüb. Buna misal bizimlə səfər edən məzunlarımız, qazi adını daşıyan Əli və Orxan kimi oğullarımız bu yollarda nələr baş verdiyini, necə döyüşlər getdiyini bizdən daha yaxşı bilirdilər.

Dolaylar qurtarandan sonra yoxlama postlarındakı polis işçiləri bizi heyran etdilər. Onlar səbrlə, ləyaqətlə öz vəzifələrini yerinə yetirirdilər. Sanki bu torpaqları azad edən oğullarımız estafeti onlara verib demişlər: "Baxın! Ayıq olun! Yaxşı, diqqətlə yoxlayın, ciddi nəzarət edin ki, bir düşmən bizim torpağımıza bir də ayaq basmasın!" Onlar da bu məsuliyyəti layiqincə yerinə yetirirdilər.

Şuşaya yaxınlaşdıqca hamı həyəcanlanırdı. Silsilə dağlar bir mahnının misrasını mənim yadıma saldı: "Şuşanın dağları başı dumanlı". Əvvəllər bu misranı sadəcə oxuyurdum, mahiyyətinə tam varmadan üzərindən keçirdim. Hər yer yaşıl olsa da, boz buludlar dağları duman şəklində örpək kimi bürümüşdü. Bu əzəməti yalnız görmək gərək, sözlə ifadə etmək çox çətindir. Şuşa qalasını görəndə tarix yada düşdü. Roza xanım Pənahəli xan, İbrahimxəlil xan, Ağaməhəmməd şah Qacar və bir çoxlarının bu yerlərdə at çapıb, qılınc oynatdıqlarını vurğuladı.

Şuşanın küçələrini keçərək, "Qarabağ" hotelinə gəldik. Hotelin yanında böyük bir meydanda Azərbaycan bayrağı dalğalanırdı. Prezidentimiz İlham Əliyevin bu bayrağın qarşısında çıxış edərək, "Şuşa, sən azadsan" sözləri yadıma düşdü.

Hərə bir yeri görmək arzusunda idi. Kəmalə xanımın (İngilis dili və ədəbiyyatı departamentinin müəllimi) nənəsinin evi vaxtilə Cıdır düzünün lap yaxınlığında idi, onu axtarırdı. Xəyalə xanımın (Qəbul və tələbə şöbəsinin assistenti) ömür - gün yoldaşı İlkin Şuşada ata yurdunu görəndə çox kövrəldi. Ev tamamilə dağıdılmış, yararsız vəziyyətə düşmüşdü.

Nəhayət, Cıdır düzü! Bu düzü hər yerdə - şəkillərdə, reklamlarda görmüşdük. Lakin indi uçurumun qarşısında dayanmışıq. İlahi! İgid əsgərlərimiz çiyinlərində avtomat və sürsatlarla bu qayalara necə dırmaşıblar, vuruşublar?! Dərin düşüncələr içində "Məzarınız nurla dolsun! Yaşasın Azərbaycan oğulları!"pıçıldadıq.

Mən, Roza xanım, Kəmalə xanım hotelin 8-ci mərtəbəsində yerləşdik. Balkondan necə gözəl bir mənzərə açılırdı! Uzaqda Xankəndini seyr edərək, içimizdən bir arzu keçdi: "O gün olsun, oraya da gedək"... Amin! Gözəl bir axşam! Səma mas - mavi. Ulduzlar çox yaxın. Əlimi uzatdım, dərə bilmədim.

Həqiqətən, unudulmaz bir axşam oldu. Ad günləri, mənim də ad günüm qeyd edildi. Hamlet müəllim və Zərifə xanım mənə təntənəli surətdə milli kəlağayı hədiyyə etdilər.

Bu unudulmaz günlər Xəzərin tarix salnaməsinə yazılacaq. Çoxlarının arzu etdiyi günlər bizə nəsib oldu. Belə ola həmişə!

**Firəngiz Nəsirova,**
*İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi*

# ŞUŞA MƏĞRUR GÖRÜNÜRDÜ...

...Duyğularım ilk öncə çox qarışıq oldu. Uşaqlığımızdan Şuşanın işğal tarixini öyrənərək, içimizdə azca da olsa ümidimiz var idi ki, bir gün Şuşa və işğal olunan torpaqlarımız azad olunacaq. Şuşaya daxil olanda qəlbimə böyük bir kədər qondu. Sanki o çətin günlərdə şəhidlərimizin, qazilərimizin çəkdiyi çətinlikləri hiss etdim. Şuşa sanki bir tərəfdən şəhid qanıyla yuyulduğu üçün kədərini qürurla gizlədir, digər tərəfdən də gözəl gələcək ümidiylə məğrur görünürdü. Müharibənin qızğın vaxtları bizim ailəmizdə də böyük narahatçılıq var idi. Çünki Şuşanın azad olunmasında bütün şəhid qardaşlarımız və qazilərimiz ilə bərabər qəhrəmancasına iştirak etmiş, ağır yaralanmış əmim oğlu Əziz Əzizov də cəbhədə igidlərin sırasında idi.

Allah bu günləri bizə yaşadan şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin, ordumuzu, xalqımızı və dövlətimizi qorusun!

**Aytac Misgərli,**
*Kitabxana və İnformasiya Mərkəzi, direktor müavini*



*Aytac Misgərli*

# BİZİM EVİ TAPA BİLMƏDİM...

Mənim gözəl nənəm, sən olmayandan sonra yuxuma tez-tez gəlirdin. Birgə yürüyürük. Sual vermirəm, çünki, bilirəm ki, Şuşadayam və "bizə" gedirik. Lakin "bizə" çatmırıq və səni itirirəm...

Məni ilk dəfə 7 yaşımda Şuşaya aparmışdın. Cıdır düzündə əlimdən tutub harasa gedirdik. Dedim:

-Nənə, Südabə xalagilə gedirik?

-Yox, qızım "bizə" gedirik.

Yadımda deyil "bizə" deyəndə hansı hissləri keçirtdim. Deyəsən, sevinmədim, çünki, sənin baxışların kədərli, həyəcanla dolu idi, əllərin də, deyəsən, əsirdi.



*Kəmalə Əsgərova*

Şuşanın qara və boz rəngdə olan, çay daşları ilə düzülmüş köndələn küçələri ilə endik və bir yerə çatdıq. Sən əlimi buraxdın. Darvazanın hər iki tərəfi dəmir məhəccər ilə tutulmuşdu. Qıraqda bir daşın üstündə oturdun. Kəlağayıya bürünmüş bədənin titrəyirdi. Sakit və hönkür-hönkür ağlayırdın. Heç yerə baxmırdın. Məhəccərin arxasında gözəl bir mənzərə açılırdı. Yaşıl çəmənlik və nəhəng yaşıl ağaclar. Bir az içəridə ikimərtəbəli boz daşdan tikilmiş ev (Nənəm sonralar dedi ki, 27 pəncərəsi var idi). Ancaq mən sadəcə yaşıllıq içində, tam görünməyən bir uzun evi xatırlayıram. Və bu an balaca bir oğlan uşağı həyətin o tərəfindən gəlib məhəccərdən gözlərini bərəldərək, aqressiv şəkildə qışqıraraq: "Bu bizim evdi, get buradan!"- dedi. Mən bərk qorxdum, kədər və qəm içində olan nənəmə tərəf baxdım. Hardansa cəsarət tapıb göz yaşlarımı boğaraq: "Sən get, bu bizim evdir" - dedim. Nənəm kəlağayının ucları ilə göz yaşlarını silib, ayağa qalxdı. Əlini mənə uzatdı, qaçıb əlindən tutdum. Artıq heç nə xatırlamıram. Sonra bildim ki, "bizim" ev artıq uşaq evi imiş. Bolşeviklər inqilabdan sonra gəlib evdə olan qiymətli əşyaları alıb apardılar, "bunlar muzeydə olmalıdır" - dedilər. Evi də müsadirə etdilər.

Mənim əziz nənəm, sən hər il məni yayda gözəl Şuşaya aparmaq istəyirdin. Mən isə getmirdim. Səbəb olaraq isə qardaşım və dayım qızının çox ərkəsöyün və nadinc olduqlarını gətirirdim. Əslində başqa bir səbəb var idi. "Bizim" evdə o oğlan uşağının qorxunc baxışı və bağırtısı: "Get buradan, bura bizim evdi".

Bəlkə sən mənə yaşadığın faciələrdən danışmaq istəyirdin. Ürəyini boşaltmaq istəyirdin. Axı mən sənin ən böyük nəvən idim. Lakin mən o vaxt bunları başa düşmürdüm. Sən heç kimə yaşadığın faciələrindən danışmırdın, əvəzində qəmli mahnılar oxuyurdun, gözlərin yaşla dolurdu. Şuşanın gözəlliklərindən tez-tez danışırdın: "Ərim gəldi" dağı, Qala, Cuhur, Qurdlar, Seyidlər məhəllələri haqqında, həyətinizdə olan iki quyudan bəhs edirdin.

Dünyanın ən gözəl, sevimli anası, nənəsi, "mama qızı"! Ruhun şad olsun! Şuşada artıq sərbəst gəzirik. Mən isə bizim evi tapa bilmədim. Bağışla. Hətta kəlağayını da götürdüm ki, ona bürünüb sənin oturduğun daşın üstündə oturaraq, hamımızın əvəzinə hönkür-hönkür ağlayım, sonuncu dəfə ağlayım bizim Şuşada...

**Kəmalə Əsgərova,**
*İngilis dili və ədəbiyyatı departamentinin müəllimi*

# CIDIR DÜZÜNDƏ: ƏLİMİZDƏ BAYRAĞIMIZ, QƏLBİMİZDƏ VƏTƏN SEVGİSİ

Şuşanın azad olduğunu bilmək ayrı, görməyin isə tamam ayrı hiss olduğunu deyirdilər: haqlı imişlər.

Şuşanın təmiz havasını ciyərlərimizə çəkəcəyimiz gün, yəni, azadlıq ruhu olan bu şəhərə səyahətimiz iyun ayının ilk günlərinə təyin olunmuşdu. Günlərdir bu səfərin həyəcanını yaşayırdıq.

Vətən Müharibəsindən sonra çəkilən möhtəşəm Zəfər yolunu qalxarkən hər birimiz yaman duyğulanmışdıq. Xüsusən Şuşaya qalxan aşırımlı dağ yollarını qalxdıqca hər birimiz yalnız və yalnız şəhidlərimizi, qazilərimizi və Ali Baş Komandanımız İlham Əliyevin Vətən Müharibəsində nümayiş etdirdiyi ordu-xalq birliyini düşünürdük.



*Mədinə Karahan*

Dağ yolunu müasir tipli yeni yolla qalxır və müharibə vaxtı igid oğullarımızın sıldırım, sərt yoxuşlu dağı, meşəni, qayalığı necə çətinliklə qalxdıqlarını təsəvvür etməyə çalışırdıq. Görün, bu igidlərimizdə Vətən, torpaq sevgisi nə qədər güclü olub! Onları bu məqamda yalnız sərt iqlim şəraitində irəliləyib, Şuşanı yağı düşməndən azad etmək düşündürüb.

Müəllim dostlarımızdan biri Şuşanın azad edildiyi gün haqqında mətbuatdan və dostlarından eşitdiklərini söyləyir, ətrafdakılar diqqətlə dinləyir. Çoxumuz bu qəhrəmanlıqları dəfələrcə eşitmişik. Amma... ilk dəfəki kimi yenə də acgözlüklə dinləyirik. Yol yoldaşımız, universitetin müəllimi aşıq Ramin isə Vətən haraylı saz havaları oxuyur, təbii ki hamı ilə birlikdə.

Gəlib çatdıq qədim Qarabağın üzük qaşı olan Şuşamıza! Şuşamız hər gözəlliyi ilə yenidən bizimlədir! Bu möhtəşəm hissi, həyəcanı hər kəs fərqli yaşayırdı, xəzərlilərin keçirdiyi hisslər üzlərindən aydın oxunurdu. Həmin gün hamının - universitetin qurucusu, Prof. Hamlet İsaxanlı, Dos. İsaxan İsaxanlı, çox uzun illər universitetlə əməkdaşlıq edən qocaman müəllimlər, departament rəhbərləri və doğma universitetləri ilə həmişə fəxr edən məzunların qəlbi tək ürək kimi döyünürdü!

Doğma Qarabağın adını daşıyan hotelimizə yerləşər-yerləşməz Şuşa ilə tanışlığa başladıq. Yağan yağış, dolu bizə əngəl olmadı, hətta bunu da əyləncəyə çevirməyi bacarırdıq. Molla Pənah Vaqifin məqbərəsini ziyarət edərkən doluya yaxalandıq, uzun müddət məqbərədə gözləməli olduq: Hamlet İsaxanlı və İsaxan İsaxanlının Vaqifin yaradıcılığından söylədiyi şeirlər aşıq Raminin xoş avazı ilə birləşərək hafizələrə həkk olundu. Möhtəşəm anlar idi!

Yuxarı Gövhərağa məscidində, Cıdır düzündə, Şuşa qalasında, Bülbülün ev muzeyində və bir çox yerlərdə olduq. Ətraf ermənilərin vəhşicəsinə dağıtdığı binalarla dolu olsa da, dayanmadan gedən tikinti işləri şəhərin necə böyük sürətlə yenilənərək bərpa olunacağının müjdəsini verirdi.

Cıdır düzündə əlimizdə Bayrağımız, qəlbimizdə Vətən sevgisi ilə nə qədər qeyri-adi hisslər yaşadıq, ilahi!? Hamlet İsaxanlının bədahətən dediyi şeir isə tarixi məqam idi!

*Bir bulud oynadı göyün üzündə*
*Bir sevgi qaynadı qızın gözündə.*
*İki məhəbbətin bir məkanı var*
*Dünya nə gözəldir Cıdır düzündə...*

Növbəti gün proqramda nəzərdə tutulan Əhməd Ağaoğlunun həyatı və ədəbi-ictimai fəaliyyəti haqqında

(*Ardı səh.16–da*)

elmi seminarımız başladı. "Qarabağ" hotelinin konfrans zalında "Böyük narahat adam" haqqında danışan professor Hamlet İsaxanlı Əhməd bəyin keçdiyi həyat yolundan, böyük mütəfəkkirin Türkiyə və Azərbaycan üçün gördüyü misilsiz işlərdən bəhs etdi. Əminik ki, Əhməd bəyin ruhu doğulub boya-başa çatdığı azad Şuşada anıldığı üçün bir daha şad oldu.

Seminardan sonra bu möcüzəli şəhəri təkrar gəzdik, sanki hafizəmizə həkk etmək istəyirdik. Çünki bir sonrakı səfərimiz zamanı yeni bir Şuşa ilə qarşılaşacağımızı bilirdik: şəhərdə quruculuq işlərinin sürəti bundan xəbər verirdi.

Bakıya qayıtmaq saatı gəldiyində bələdçimiz yolüstü yenilənən Füzuli şəhəri haqqında da məlumat verməyi unutmadı; Füzuli Hava Limanı ilə də tanış olduq.

Bir məqamı xüsusi qeyd etmək yerinə düşər: Nə Şuşada, nə də Füzulidə rastlaşdığımız insanların üzündə həyəcan, nigarançılıq yoxdur. Şəhərdə "qəribə" rahat adamlar gəzir. Bunun isə tək bir adı var: ÜMİD!

Azadlıq hər mənada gözəl hissdir, hələ söhbət Vətəndən gedirsə! Həyatımda ilk dəfə idi Şuşaya gedirdim. Əslində, bu günün xəyalını çox qurmuşdum, amma belə əsrarəngiz olacağını düşünə bilməmişdim. Mənə bu təkrarsız xatirəni yaşadan təşkilatçılara dərin təşəkkürümü bildirirəm! Sizinlə hər yola varam!

Doğma Şuşa, salamat qal! Ümidlərin doğrulacaq, əminik! Həmin günlərdə yenidən görüşərik!

**Mədinə Karahan,**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Xəzər Universitetinin müəllimi*

# SƏFƏR MƏNƏ YENİ DƏYƏRLİ İNSANLARI TAPMAQDA VƏSİLƏ OLDU



*Mirşərəf Təhməzov*

Şuşa səfərində dəyərli Prof. Hamlet İsaxanlının rəsmiyyətdən və pafosdan uzaq, hamının dil tapa biləcəyi, nə qədər rahat adam olduğunu gördüm. Baxmayaraq ki, bunu bilirdim, amma bir daha əmin oldum.

İsaxan müəllimi həmişə zəhmli insan kimi tanıyırdım, amma burada onun da bir o qədər mülayim xarakterli olduğunu kəşf etdim.

Səfərin təşkilində zəhmət çəkən, işığına yığışdığımız Zərifə xanıma və onun qızlarına səmimi təşəkkürümü bildirirəm.

Müəllimlərimiz, məzunlarımız və qonaqlarla yol yoldaşı və həmsöhbət olmaq mənə mənəvi zövq verdi. Bu səfər mənə yeni dəyərli insanları tapmaqda vəsilə oldu. Hər biri hörmətə layiq şəxsiyyətlərdir.

Ustad aşıq Ramini tanıdım və hoteldə klassik ədəbiyyatımızdan bəzi nümunələri müzakirə etdik.

Tur rəhbəri Orxan da sağ olsun!

Xəzər Universitetinin Multimedia Mərkəzinin fotoqrafı Mustafaya təşəkkür!

Və nəhayət, bir yerdə təhsil aldığım, amma səfər boyunca tanımadığım, Füzuli hava limanında mən yorğun halda oturmuşkən "çəkimmi şəklini?" deyərək, sanki mənə qanad verən Ofelya xanıma (məzun) təşəkkür və sayqılar göndərirəm.

**Mirşərəf Təhməzov,**
*məzun (2004-2008)*

THE IMPACT RANKINGS




# XƏZƏR UNİVERSİTETİ "TIMES HIGHER EDUCATION IMPACT RANKINGS 2024" REYTİNQ CƏDVƏLİNDƏ YER ALIB

Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2024-cü il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyənləşdirərək, "THE University Impact Rankings 2024" reytinq cədvəlini açıqlayıb.

Reytinqin 6-cı nəşrinə 125 ölkədən 2152 universitet daxil edilmişdir.

Xəzər Universiteti sözügedən reytinqdə 601-800 aralığında qərarlaşaraq, Azərbaycan universitetləri arasında 17 dayanıqlı inkişaf məqsədindən 15-i üzrə aparıcı yer alan yeganə universitetdir.

Beləliklə, Xəzər Universiteti dayanıqlı inkişaf məqsədlərinin 1-i üzrə 101-200, digər 1-si üzrə 201-300, 5-i üzrə 301-400, 4-ü üzrə 401-600, növbəti 4 məqsəd üzrə isə 601-800 aralığında qərarlaşmışdır.

Reytinq haqqında daha ətraflı məlumat aşağıdakı linkdə:
*https://www.timeshighereducation.com/impactrankings*

# KHAZAR UNIVERSITY IN "TIMES HIGHER EDUCATION IMPACT RANKINGS 2024"

"Times Higher Education" (THE), one of the world's most influential rating organizations, announced the "University Impact Rankings 2024," identifying the best universities worldwide for 2024 based on the UN's Sustainable Development Goals. These rankings highlight universities distinguished by their social and economic contributions.

The 6th edition of the rankings includes 2152 universities from 125 countries.

Khazar University is ranked in the 601-800 range and is the only university to lead among Azerbaijani universities in 15 out of 17 SDGs.

Thus, Khazar University is ranked 101-200 in one field, 201-300 in another field, 301-400 in five fields, 401-600 in four other fields, and 601-800 in four other fields.

For more information, please see the link below:
*https://www.timeshighereducation.com/impactrankings*

# TƏLƏBƏLƏRİN DƏRSDƏNKƏNAR UĞURLARININ MÜKAFATLANDIRILMASI MƏRASİMİ



İyunun 4-də Xəzər Universitetini həm respublika, həm də beynəlxalq tədbir və layihələrdə uğurla təmsil edən tələbələrin mükafatlandırılması mərasimi baş tutub. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, fakültə dekanları, universitet əməkdaşları və tələbələr iştirak ediblər.

İradə Xəlillova tədbiri giriş sözü ilə açaraq, tələbələri təbrik edib. Onların uğurlarına həsr edilən videoçarx nümayiş olunub. Sonra tələbələrə - Huseyn Musayev, Şərqiyyə Rəhimli, Aysu Məmmədli, Lalə Məhərrəmova, Şəfa Yusifova, Zeynal Mardanli,

# STUDENTS HONORED AT EXTRACURRICULAR ACHIEVEMENT AWARDS CEREMONY

On June 4, an awards ceremony was held to honor students who successfully represented Khazar University in national and international events and projects. The event was attended by the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli; the Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova; Vice Rector for Administration and Student Affairs, Isakhan Isakhanli; faculty deans; university employees; and students.

Irada Khalilova opened the event with a congratulatory speech for the students. A video showcasing their achievements was then presented. Following









Əminə Əliyeva, Aygün Muradova, Davud Vahidov, Fərid Cənnətov, Rəvan Şərifov, Afət Əhmədova, Aişə Bəşirli, (*Təbiət Elmləri və mühəndislik fakültəsi*), Şahin Əliyev, Elvin Məmmədsalahov, Əlağa Babayev, Ziya Əlizadə, Adəm Alıyev, Nərmin Cəbrayılova, (*İqtisadiyyat və menecment fakültəsi*), Xəyalə Məmmədova, Şayəstə Malekan, Aldila Qonita Putri Aulia, Zöhrə Məmmədova, Səriyyə Allazova, Akif Rəfibəyli, Gülsün Həmidova, Minurə Cavadova, (*Humanitar, təhsil və sosial elmlər fakültəsi*), Brilliant Windy Khairunnisa (*Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi*), Aduagba Yahaya Abdullahi və Momeena Mehdi`yə (*İqtisadiyyat və biznes yüksək təhsil fakültəsi*) mükafatlar verilib.



this, the students Huseyn Musayev, Sharkiya Rahimli, Aysu Mammadli, Lala Maharramova, Shafa Yusifova, Zeynal Mardanli, Amina Aliyeva, Aygun Muradova, Davud Vahidov, Farid Jannetov, Ravan Sharifov, Afat Ahmadova, Aisha Bashirli (*School of Science and Engineering*); Shahin Aliyev, Elvin Mammadsalahov, Alagha Babayev, Ziya Alizade, Adam Aliyev, Narmin Jabrayilova (*School of Economics and Management)*; Khayala Mammadova, Shayaste Malekan, Aldila Gonita Putri Aulia, Zohra Mammadova, Seria Allazova, Akif Rafibeyli, Gulsun Hamidova, Minura Javadova ( *School of Humanities, Education, and Social Sciences*); Brilliant Windy Khairunnisa (*Graduate School of Science, Art and Technology*); Aduagba Yahaya Abdullahi and Momeena Mehdi (*Graduate School of Economics and Business*) were awarded prizes.

# TÜRK DÜNYASI RƏQƏMSAL VƏTƏNDAŞLIQ LAYİHƏSİNİN (TUDVA) SERTİFİKATLARI TƏLƏBƏLƏRƏ TƏQDİM EDİLİB

# STUDENTS RECEIVE CERTIFICATES FOR THE TURKISH WORLD DIGITAL CITIZENSHIP PROJECT (TUDVA)

İyunun 5-də Xəzər Universitetində Türk Dünyası Rəqəmsal Vətəndaşlıq Layihəsində fəal iştirak edən tələbələrə TUDVA tərəfindən verilən sertifikatların təqdimat mərasimi olub. Tədbirdə İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu iştirak ediblər.



Dillər və ədəbiyyatlar departamentinin müəllimi, TUDVA-nın Xəzər Universiteti üzrə koordinatoru Dr. Zəminə Ziyayeva tədbir və TUDVA platforması haqqında iştirakçıları məlumatlandırıb. Sonra Dr. Ceyhun Məmmədov tələbələrə sertifikatları təqdim edib.

Qeyd edək ki, TUDVA 2022-ci ildə Türk Dövlətləri Təşkilatının təşkilatçılığı ilə Türkiyənin Ərzincan şəhərində keçirilmiş Türk Dünyası Simpoziumunda rəsmi quruluşu elan edilmiş bir platformadır. Xəzər Universitetinin tələbələri bu platformanın 3-cü ilində keçirilən dərslərdə iştirak ediblər: Eltac Əbilov, Lalə Məmmədova (*Təbiət elmləri və mühəndislik fakültəsi*), Elnurə İsayeva, Emilya Səmədova, Natavan Orucova, Minurə Cavadova, Könül İbrahimli, Yaqut Seyidova (*Humanitar, təhsil və sosial elmlər fakültəsi*), Əlağa Babayev (*İqtisadiyyat və menecment fakültəsi*) fəallığa görə müxtəlif sertifikatlarla təltif ediliblər.

Onlardan Əlağa Babayev (*İqtisadiyyat və menecment fakültəsi, Biznesin idarə edilməsi ixtisası, 1-ci kurs*) və Minurə Cavadova (*Humanitar, təhsil və sosial elmlər fakültəsi, Tarix müəllimliyi ixtisası, 3-cü kurs*) Türkiyədə təşkil ediləcək bir həftəlik "Elm düşərgəsi"ndə iştirak hüququ qazanmışlar.

On June 5, a certificate presentation ceremony, awarded by TUDVA to students actively participating in the Turkish World Digital Citizenship Project, was held at Khazar University. Dean of the School of Economics and Management Dr. Jeyhun Mammadov, Dean of the School of Science and Engineering Fakhranda Efendiyeva, Deputy Dean of the School of Humanities, Education and Social Sciences Aygun Verdiyeva, Assoc. Prof. Telman Nusratoghlu, Head of the History and Archeology Department, faculty members and students attended the event.

Dr. Zamina Ziyayeva, a lecturer in the Department of Languages and Literature and TUDVA coordinator for Khazar University, provided information about the event and the TUDVA platform.Then Dr. Jeyhun Mammadov presented certificates to the students.

Note that TUDVA, a platform officially established during the Turkic World Symposium held in Erzincan, Türkiye, by the Organization of Turkic States in 2022, has had active participation from Khazar University students in its third year. These students include Eltaj Abilov, Lala Mammadova (School of Science and Engineering); Elnura Isayeva, Emilya Samadova, Natavan Orujova, Minura Javadova, Konul Ibrahimli, Yagut Seyidova (School of Humanities, Education and Social Sciences); and Alagha Babayev (School of Economics and Management), all of whom were awarded various certificates for their activity.

Among them, Alagha Babayev (School of Economics and Management, Business Management major, 1st year) and Minura Javadova (School of Humanities, Education and Social Sciences, History Education major, 3rd year) won the right to participate in a week-long "Science Camp" to be organized in Türkiye.

## ÜLKƏR İSAYEVA VƏ HAMLET İSAXANLININ BİRGƏ ƏRSƏYƏ GƏTİRDİYİ FƏSİL *SPRİNGER NATURE* TƏRƏFİNDƏN ÇAP OLUNMUŞ "*SUICIDAL BEHAVIOR IN MUSLIM MAJORITY COUNTRIES*" KİTABINDA




Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Ülkər İsayeva və universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, riyaziyyat departamentinin müəllimi Prof.Akad. Hamlet İsaxanlının "Suicidal Behavior in Azerbaijan" ("Azərbaycanda intihar davranışı") adlı birgə fəsli nəşr edilmişdir. Fəsil *Springer Nature Singapore Pte Ltd* şirkəti tərəfindən "*Suicidal Behavior in Muslim Majority Countries*" ("Əhalisinin əksəriyyəti müsəlman olan ölkələrdə intihar davranışı") adlı kitabda çap olunmuşdur.

Tədqiqatçılar Azərbaycanın unikal coğrafi, sosial-mədəni və tarixi reallığında intihar fenomenindən geniş danışırlar. Onlar Azərbaycanda intihar davranışına səbəb olan risk faktorlarını təsvir edir və intiharın qarşısının alınması üçün maneələrin aradan qaldırılması ilə bağlı mövcud problemlərin dərin təhlilini təqdim edirlər. Müəlliflər qeyd edirlər ki, Azərbaycanda intiharın digər oxşar ölkələrə nisbətən daha az olmasına baxmayaraq, intihara təsir edən risk faktorları daha yaxından araşdırılmalıdır.

## CHAPTER CO-AUTHORED BY ULKER ISAYEVA AND HAMLET ISAKHANLI PUBLISHED IN THE BOOK "*SUICIDAL BEHAVIOR IN MUSLIM MAJORITY COUNTRIES*" BY SPRINGER NATURE

The chapter titled 'Suicidal Behavior in Azerbaijan,' authored jointly by Ulkar Isayeva, a faculty member in the Psychology Department at Khazar University, and Prof. Acad. Hamlet Isakhanli, the university's founder and chairman of the Board of Directors and Trustees, professor at the Mathematics Department, has been published in the book 'Suicidal Behavior in Muslim Majority Countries' by Springer Nature Singapore Pte Ltd.

In their chapter, the researchers extensively discuss the phenomenon of suicide within unique geographical, socio-cultural, and historical context of Azerbaijan. They discuss the various risk factors contributing to suicidal behavior in Azerbaijan and present a thorough analysis of the current challenges hindering effective suicide prevention efforts. Despite the relatively lower prevalence of suicide in Azerbaijan compared to similar nations, the authors emphasize the importance of exploring the underlying risk factors to better understand and address this crucial issue.

## TƏLƏBƏLƏR ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTUNUN ELMİ EKSPOZİSİYA ZALINDA

Mayın 12-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəlllimi Dr. Yaqub Məmmədovun təşkilatçılığı ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi ekspozisiya zalında ekskursiyada olublar.

Ekskursiya zamanı ixtisasca arxeoloq olan Yaqub Məmmədov tərəfindən tələbələrə Azərbaycan ərazisində aparılmış tədqiqatlar nəticəsində əldə oluman nümunələr əsasında arxeoloji irs və ölkənin qədim tarixinin öyrənilməsində yeri haqqında ətraflı məlumat verilib.

## STUDENTS IN SCIENTIFIC EXHIBITION HALL OF INSTITUTE OF ARCHEOLOGY AND ANTHROPOLOGY

On May 12, the first-year students of Khazar University's School of Science and Engineering went on an excursion to the Scientific Exhibition Hall of the ANAS Institute of Archeology and Anthropology guided by Yagub Mammadov, the lecturer of the History and Archeology Department.

During the excursion, archaeologist Yagub Mammadov provided students with detailed information about our archaeological heritage and its significance in the study of our ancient history, based on the archaeological samples uncovered from archaeological research conducted in the territory of Azerbaijan.



*Yaqub Məmmədov*

## PROF.AKAD. HAMLET İSAXANLI ANKARADA KEÇİRİLƏN TÜRK DÜNYASI MİLLİ ELMLƏR AKADEMİYALARI BİRLİYİNİN BAŞ MƏCLİSİNİN YEDDİNCİ TOPLANTISINDA

## PROF. ACAD. HAMLET ISAKHANLI ATTENDS VII GENERAL ASSEMBLY OF UNION OF NATIONAL ACADEMIES OF SCIENCES OF THE TURKIC WORLD IN ANKARA



*Hamlet İsaxanlı, Mustafa Verşan Kök*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı 2024-cü il mayın 27-də Ankarada keçirilən Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin (TDMBAB) Baş Məclisinin yeddinci toplantısında (Türk Dünyası Milli Bilimleri akademileri Birliği - TDMBAB Yedinci Genel Kurul" Toplantısı) iştirak edərək, "Əməkdaşlığa dair təkliflər" ("İş birliği Önerileri" belgesine dayalı tartışma) sənədi əsasında müzakirədə fikir və təkliflərini bildirmişdir.

Mayın 28-də Prof. Akad. Hamlet İsaxanlı Orta Doğu Universitetinin rektoru Prof. Dr. Mustafa Verşan Kök və Bilkent Universitetinin rektoru Prof. Dr. Kürşat Aydoğan ilə (hər biri ilə ayrı-ayrı) görüşmüşdür. Görüşlərdə universitetlərin yeni sahələrdə əməkdaşlığının inkişafı müzakirə olunmuşdur.

Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, attended the seventh General Assembly meeting of the Union of National Academies of Sciences of the Turkic World (UNASTW) in Ankara on May 27, 2024, where he shared his perspectives and suggestions based on the "Proposals on Cooperation" document.

On May 28, Prof. Acad. Hamlet Isakhanli had meetings with Prof. Dr. Mustafa Vershan Kok, the rector of Middle East University, and Prof. Dr. Kurshat Aydogan, the rector of Bilkent University. These meetings focused on discussing the development cooperation between universities in new fields.

# TURİZM İŞİNİN TƏŞKİLİ İLƏ BAĞLI SEMİNAR



*Həmid Cahidi Korabbaslı*



# SEMINAR ON TOURISM MANAGEMENT

Mayın 14-də PICASP layihəsi (mədəni irsi öyrənmə) çərçivəsində İqtisadiyyat və menecment departamentinin təşkilatçılığı ilə "Ulduz Tur" şirkətinin rəhbəri Həmid Cahidi Korabbaslı Xəzər Universitetinin turizm ixtisası üzrə təhsil alan tələbələri üçün seminar keçirib.

Şirkət rəhbəri tələbələrə Korabbaslı biznes planının hazırlanması, turizm şirkətinin açılması, turizm xidmətləri, daxili və xarici turlar, qonaqlama xidməti, qonaqların qarşılanıb yola salınması üçün nəqliyyat xidməti, viza dəstəyi, aviabiletlərin *Galileo* və *Amadeus* proqramları vasitəsilə bronlaşdırılması, səyahət sığortası, tur bələdçi xidməti və otellərdə qidalanmanın növləri barədə geniş məlumat verib.

İnteraktiv şəkildə keçən seminarda tələbələrin sualları ətraflı cavablandırılıb.

On May 14, Hamid Jahidi Korabbasli, head of "Ulduz Tur" company, conducted a seminar for tourism students at Khazar University, organized by the Department of Economics and Management as part of the PICASP project (cultural heritage learning).

The company head briefed the students on preparing a business plan, establishing a travel company, tourism services, domestic and international tours, accommodation services, transportation for guest arrivals and departures, visa support, booking airline tickets through *Galileo* and *Amadeus* programs, travel insurance, tour guide services, and types of hotel dining options.

The interactive seminar included a detailed Q&A session where students' questions were thoroughly addressed.

Students ' questions were answered in detail at the interactive seminar.





SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNDƏ

# PSYCHOLOGY DEPARTMENT STAFF MEMBER AT THE CENTER FOR SOCIAL STUDIES

Mayın 15-də "Beynəlxalq Ailə Günü"ndə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən "Azərbaycan ailəsi: dəyişən və dəyişməyən dəyərlər" mövzusunda konfrans təşkil edilmişdir. Konfransda müasir ailələlərin problemləri və gələcək perspektivləri müzakirə olunmuşdur.

Konfransda Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov, Mərkəzin İdarə heyətinin sədri, millət vəkili Zahid Oruc, sektor müdiri Humay Axundzadə çıxış ediblər. Humay Axundzadə "Müasir Azərbaycan ailəsi hesabatı əsasında Azərbaycan ailəsinin ənənəvi və yenilənən cəhətləri" mövzusunda 2023-cü il ərzində 3400-dən çox şəxs üzərində aparılan tədqiqatın analitik nəticəsini təqdim edib. Hesabatın tərtib olunmasında əsas məqsəd ailə ilə bağlı problemləri ictimaiyyətin nəzərinə çatdırmaq idi.

Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşı Mələk Kərimova konfransda "Uşaq" böyüklərin ailə çətinlikləri" mövzusunda çıxış etmişdir. O, çıxışında yetkin olmayan şəxslərin ailələrdəki ünsiyyət dinamikalarını açıqlayaraq, ailədəki problemlərin yaranmasına təsir mexanizmləri üzərində dayanmışdır.

Konfransın sonunda müzakirələr aparılaraq, təkliflər dəyərləndirilmişdir.

On May 15, the "Azerbaijani Family: Changing and Immutable Values" conference was organized by the Social Research Center on "International Family Day". The problems and future prospects of modern families, open to the public, of the conference were discussed. Malak Karimova, an employee of Khazar University's Department of Psychology, spoke at the conference on " Challenges Faced by "Childish" Adults in Family Life". In her speech, she explained the communication dynamics of immature persons in families and focused on the mechanisms of influence on the emergence of problems in the family.

The executive director of the Social Research Center Sahib Mammadov, deputy Zahid Oruj, the chairman of the Board of the Social Research Center, and Humay Akhundzade, the sector manager of the Social Research Center, also spoke at the conference. Humay Akhundzade presented to the public the analytical report of the research conducted on 3478 people in 2023 on the topic of "Traditional and updated aspects of the Azerbaijani family" based on the "Modern Azerbaijani family report". The main goal of the report was to present issues reflecting family problems to a wide audience.

Later, discussions were organized around the topic and proposals were evaluated.

*https://bakivaxti.az/az/posts/detail/azerbaycan-ailesi-deyisen-ve-deyismeyen-deyerler-movzusunda-konfrans-kecirildi-1715754723*

# "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ "SƏNƏT VƏ TƏBİƏT MÜNASİBƏTLƏRİ: MEŞƏYƏ İNSAN GƏLİR!" ADLI DƏYİRMİ MASA

# ROUND TABLE ON " ART AND NATURE RELATIONS: MAN COMES TO THE FOREST!" HELD AS PART OF "YEAR OF SOLIDARITY FOR THE GREEN WORLD"



*Aqşin Yenisey*



Mayın 16-da Xəzər Universitetinin Nərimanov kampusunda Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Sənət və təbiət münasibətləri: meşəyə insan gəlir" adlı dəyirmi masa keçirilib. Tədbiri departamentin müəllimi Dr. Röya Mürşüdova giriş sözü ilə açaraq, Azərbaycan ədəbiyyatı kontekstində sənət və təbiət münasibətləri, ekoloji problemlərin həllində ədəbiyyatın rolu haqqında danışıb.Tədbirdə qonaq qismində iştirak edən şair Aqşin Yenisey "ekoədəbiyyat" və "ekotənqid" anlayışları haqqında geniş məlumat verərək, təbiətin qorunmasında bədii ədəbiyyatın imkanlarından, mifologiyada, klassik və çağdaş Azərbaycan ədəbiyyatında insan və təbiət münasibətlərindən bəhs edib.

Tədbirdə departamentin müəllimləri Dos. Ülvi Babasoy, Dr. Zəminə Ziyayeva, Dr.Reyhan Mədətova mövzu ətrafında fikir və mülahizələrini bildiriblər. Yekunda tələbələr Aqşin Yeniseyin təbiət mövzusunda qələmə aldığı şeirləri səsləndiriblər və mövzu ilə bağlı onları maraqlandıran suallar şair tərəfindən cavablandırılıb.

On May 16, a round table entitled "Art and nature relations: Man Comes to the Forest" was held in the Department of Languages and Literatures of Khazar University as part of the "Year of Solidarity for the Green World" at Narimanov campus. The event was opened by the lecturer of the department, Dr. Roya Murshudova, who spoke about the relationship between art and nature in the context of Azerbaijani literature, and the role of literature in solving environmental problems. The poet Agshin Yenisey, who participated in the event as a guest, gave extensive information about the concepts of "eco-literature" and "eco-criticism", talked about the possibilities of fiction in protecting nature, and the relations between man and nature in mythoalogy, classical and contemporary Azerbaijani literature.

At the event, lecturers of the department, Assoc. Prof. Dr. Ulvi Babasoy, Dr. Zamina Ziyayeva, Dr. Reyhan Madatova, expressed their thoughts and opinions on the topic. In the end, the students recited the poems written by Agshin Yenisey on nature, and the poet answered their questions about the topic.





*Ülviyyə Cəfərova*

# "BEYNƏLXALQ SATIŞ ÜZRƏ MÜTƏXƏSSİS" PROQRAMI İLƏ TANIŞLIQ

# INTRODUCTION TO "INTERNATIONAL SALES SPECIALIST" PROGRAM

Mayın 16-da Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə İqtisadiyyat və menecment fakültəsinin sonuncu kurs tələbələri ilə Fish Farm şirkətinin görüşü təşkil olunub. Görüşdə şirkətin insan resursları üzrə aparıcı mütəxəssisi Ülviyyə Cəfərova Fish Farm şirkətinin fəaliyyəti və hədəfləri barədə ətraflı məlumat verərək, tələbələri "Beynəlxalq Satış üzrə Mütəxəsis" inkişaf proqramı ilə tanış edib. O, inkişaf proqramının məqsədinin akvakultura, kürü istehsalı və satışı sahəsində beynəlxalq satışlarda təcrübəyə malik yeni nəsil mütəxəssislər yetişdirmək olduğunu vurğulaıb və tələbələrə həmin proqrama müraciət etməyi məsləhət görüb.

Qeydiyyatdan keçən tələbələr üçün şirkət tərəfindən imtahan təşkil olunacaq. İmtahanı uğurla başa vuran tələbələr ikiillik ödənişli "Beynəlxalq Satış üzrə Mütəxəsis" inkişaf proqramına cəlb olunaraq, mütəxəssis kimi yetişmək imkanı qazanacaqlar.

Görüşün sonunda iştirakçıların və tələbələrin sualları cavablandırılıb.

On May 16, Khazar University Career and Alumni Center arranged a meeting between Fish Farm company and final-year students of the School of Economics and Management. During the meeting, Ulviyya Jafarova, the company's leading human resources specialist, provided detailed information about Fish Farm's activities and objectives and introduced the students to the "International Sales Specialist" development program. She emphasized that the program aims to train a new generation of specialists in international sales with experience in aquaculture, caviar production, and sales, and invited students to apply to the program.

The company will organize an exam for the registered students. Those who pass the exam will join the two-year paid "International Sales Specialist" development program, gaining the opportunity to grow as specialists.

At the end of the meeting, participants' and students' questions were answered.

# TƏLƏBƏLƏR QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA VƏ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ

# STUDENTS VISIT GOBUSTAN STATE HISTORICAL-ARTISTIC RESERVE AND NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY

Mayın 19-da Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasında təhsil alan I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəlllimi Dr. Yaqub Məmmədovun təşkilatçılığı ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda və Milli Azərbaycan Tarixi Muzeyində olublar.

On May 19, the first-year students of Khazar University's School of Humanities, Education, and Social Sciences, majoring in History Education, visited the Gobustan State Historical and Artistic Reserve and the National Azerbaijan History Museum. This trip was organized by Dr. Yagub Mammadov, a lecturer of the Department of History and Archeology.



*Yaqub Məmmədov*

Ekskursiya zamanı Yaqub Məmmədov tələbələrə Qobustanın arxeoloji cəhətdən öyrənilməsi və muzeydə saxlanılan arxeoloji nümunələr haqqında geniş məlumat verib. Eləcə də, tələbələrlə qayalar üzərindəki yüzlərlə piktoqrafik nümunələr, onların çəkilmə texnilkaları və dünyada yeri haqqında müzakirələr aparılıb.

Milli Azərbaycan Tarixi Muzeyinin yeni açılmış ekspozisiyası ilə tanışlıq tələbələrdə dərin təəssürat yaradıb. Qeyd etmək lazımdır ki, muzeylərlə tanışlıq tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir və bu iş mütəmadi təşkil olunur.

During the excursion, Yagub Mammadov provided the students with detailed information about the archaeological research in Gobustan and the artifacts housed in the museum. Additionally, discussions with the students covered the hundreds of pictographic patterns on the rocks, their drawing techniques, and their significance in the world.

The students were deeply impressed by the newly opened exhibit at the National History Museum of Azerbaijan. It is noteworthy that such museum visits are organized regularly to enhance the theoretical knowledge students acquire in their studies.

## "TANI, OXU, TANIT" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ



*Yeqzar Cəfərli, İntiqam Yaşar*



*Əkbər Qoşalı, Qardaşxan Əzizxanlı*

## MEETING WITHIN "DISCOVER, READ, PROMOTE" PROJECT

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) gerçəkləşdirdiyi "Tanı, oxu, tanıt" ədəbiyyat könüllülüyünün təbliği layihəsi çərçivəsində növbəti tədbir 2024-cü il mayın 20-də Xəzər Universitetində baş tutub.

Tədbiri Dillər və ədəbiyyatlar departamentinin müəllimi Yeqzar Cəfərli açaraq, sözü departamentin müəllimi, şair Dr. Qardaşxan Əzizxanlıya verib. O, bədii sözün əhəmiyyətindən və layihənin önəmindən danışıb.

Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti, DGTYB Məsləhət Şurasının başqanı, şair-publisist Əkbər Qoşalı ədəbiyyat könüllülüyündən, onun bugünkü vəziyyətindən bəhs edib. Birliyin başqanı, şair-publisist İntiqam Yaşar, Birliyin üzvləri – şair Taleh Mansur, Səddam Laçın, Valeh Qoca çıxışlarında DGTYB-nin ədəbi layihələrindən söz açıblar və layihə çərçivəsində çap olunmuş "Ədəbi toplu-2024" adlı kitabda yer almış şeirlərini səsləndiriblər.

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimləri – Dos. Zivər Hüseynli-Baylan, Dr. Zəminə Ziyayeva, Dr. Almaz Bədəlova və Dr. Mədinə Karahan öz çıxışlarında bu cür tədbirlərin əhəmiyyətindən danışıblar. Dillər və ədəbiyyatlar departamentinin tələbələri – Ayla Yusifova Xəyalə Sevilin "Cəzalıdı ürəyim", Rəvanə Məhərrəmova isə Həsən Kürün "Cəbhədən məktub" şeirlərini səsləndiriblər.

Sonda bütün iştirakçılara DGTYB-nin nəşr etdirdiyi kitablar hədiyyə edilib, tədbirdə fəallıq göstərən tələbələrə diplomlar verilib və xatirə şəkli çəkdirilib.

The next event within the framework of the "Discover, read, promote" literature volunteer promotion project implemented by the World Young Turkish Writers Union with the support of the Ministry of Culture of the Republic of Azerbaijan was held at Khazar University on May 20, 2024.

Yeqzar Jafarli, lecturer from the Department of Languages and Literatures, began the event with a welcoming speech and then introduced Dr. Gardashkhan Azizkhanli, a poet and fellow lecturer in the department, who greeted the guests and discussed the significance of artistic expression and the project.

Following this, Akbar Goshali, a poet-publicist and expert from the Culture Committee of the Milli Majlis and head of the Advisory Council of the World Young Turkish Writers Union, addressed the current state of literary volunteerism. The union's head, poet-publicist Intigam Yashar, along with poets Taleh Mansur, Saddam Lachin, and Valeh Goca, shared insights about the union's literary initiatives and recited their poems featured in the "Literary Collection-2024" published under the project.

Assoc. Prof. Zivar Huseynli-Baylan, Dr. Zamina Ziyayeva, Dr. Almaz Badalova and Dr. Madina Karahan, lecturers of the Department of Languages and Literatures of Khazar University, spoke about the importance of such events in their speeches. Later, Ayla Yusifova, a student of the Department of Languages and Literatures, performed Khayala Sevil's "My Heart Punished", and Ravana Maharramova performed Hasan Kur's "Letter from the Front".

At the end, all the participants were presented with books published by World Young Turkish Writers Union, diplomas were given to the students who were active in the event, and a commemorative photo was taken.

*https://www.turkustan.az/news/society/83234*




*Telman Nüsrətoğlu*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ "AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ:TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI ÇƏRÇİVƏSİNDƏ" ADLI KONFRANSDA

## ASSOC. PROF. TELMAN NUSRATOGHLU SPEAKS AT "AZERBAIJAN- TÜRKIYE RELATIONS: WITHIN THE FRAMEWORK OF THE ORGANIZATION OF TURKIC STATES" CONFERENCE

On May 21, at the conference dedicated to the topic " Azerbaijan-Türkiye Relations: Within the Framework of the Organization of Turkic States " held in Baku with the cooperation of Türkiye's Ibn Khaldun University and the Center for the Analysis of International Relations, the head of the Department of History and Archeology Assoc. Prof. Telman Nusratoghlu delivered a report on the impact of Azerbaijan- Türkiye military cooperation on the deepening integration process of the Turkish States.

Mayın 21-də Türkiyənin İbn Haldun Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) əməkdaşlığı ilə Bakıda keçirilən "Azərbaycan-Türkiyə Münasibətləri:Türk Dövlətləri Təşkilatı Çərçivəsində" mövzusuna həsr olunan konfransda Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Dos.Telman Nüsrətoğlu Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının Türk Dövlətlərinin dərinləşən inteqrasiya prosesinə təsiri ilə bağlı məruzə etmişdir.

## ERASMUS+ ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏLİM

Mayın 20-21-də Bakı Biznes Universitetinin koordinator və Xəzər Universitetinin tərəfdaş olduğu, Avropa Komissiyası tərəfindən maliyyələşən "Azərbaycanda Rektorlar Konfransının Yaradılması" (ECAR) adlı Erasmus+ layihəsi çərçivəsində gənc tədqiqatçılar üçün "Tədqiqat metodları" adlı təlim keçirilib. Təlimdə Azərbaycanın 14 müxtəlif universitetindən 25 tədqiqatçı iştirak edib.

Xəzər Universitetində təşkil olunan 2 günlük təlimin ilk günündə universitetin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva təlimin tədqiqat

## TRAINING WITHIN ERASMUS + ECAR PROJECT

On May 20-21, a "Research Methods" training was conducted for young researchers as part of the Erasmus+ project "Establishment of Rectors Conference in Azerbaijan" (ECAR), funded by the European Commission, coordinated by Baku Business University, and partnered with Khazar University. 25 researchers representing 14 universities across Azerbaijan participated in the training.

On the first day of the 2-day training organized at Khazar University, Raziya Isayeva, Development Director of the university, covered





*Raziyə İsayeva*

dizaynını, ədəbiyyat icmalı və tədqiqatda etik prinsiplər hissəsini, ikinci günündə isə Həyat elmləri departamentinin dosenti Cavid Ocaqi təlimin tədqiqat metodologiyaları, verilənlərin təhlili və hesabatların yazılması hissəsini təqdim edib.

topics on research design, literature review, and ethical principles in research. On the second day, Javid Ojagi, an associate professor from the Life Sciences Department, presented on research methodologies, data analysis, and report writing.





*Cavid Ocaqi*



# XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ MƏDƏNİYYƏT GÜNÜ



*İradə Xəlilova*



# INTERNATIONAL CULTURE DAY AT KHAZAR UNIVERSITY

Mayın 21-də Xəzər Universitetində Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı, əcnəbi və yerli tələbələrin, Xəzər Universiteti rəhbərliyinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin, Beynəlxalq Qızıl Xaç Komitəsində İmmiqrantların təhsili üzrə mütəxəssisin, diplomatik korpus nümayəndələrinin, Türkiyədən olan universitet rəh-

On May 21, Khazar University's International Relations Department organized a celebration for the International Day of Culture with the participation of international students. Every year on May 21, UNESCO observes the World Day for Cultural Diversity for Dialogue and Development.

Rector of Khazar University Assoc. Prof. Irada Khalilova opened the event, greeted the










*Alptekin Yasım, Hamlet İsaxanlı*

bərliyinin iştirakı ilə Beynəlxalq mədəniyyət günü keçirildi. Qeyd edək ki, bu tədbir BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilmiş və hər il mayın 21-də keçirilən Dialoq və İnkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Gününə həsr olunmuşdu.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova tədbiri açaraq qeyd edib ki, BMT konvensiyalarına qoşulan Azərbaycan dövləti ölkədəki milli-mədəni müxtəlifliyin qorunub

(*Ardı səh.34-də*)

participants and wished them success.

The event started with anthems of different countries and continued with a fashion show. Later, interesting music and dance performances were presented by our students representing five different countries.

Khazar University hosted international students from over 60 countries. On this day, foreign students showcased their cultures, arts, cuisines, and traditions through traditional music, dance

(*To be continued page 34*)









saxlanmasında, inkişafında maraqlıdır və buna dəstək verir. Xəzər Universitetinin indiyədək dünyanın 60-dan çox ölkəsindən olan tələbələrə ev sahibliyi etdiyini söyləyən rektor onlar üçün səmimi və rahat yaşayış, əlverişli təhsil və istirahət mühiti yaradıldığını söyləyib.

Tədbirdə müxtəlif ölkələrin himnləri ifa olunub. Əcnəbi tələbələr milli musiqi, rəqs, sərgi, moda şousu və s. vasitəsilə ölkələrinin mədəniyyətini nümayiş etdiriblər. İştirakçı ölkələr sırasında Əfqanıstan, Çin, Komor adaları, Qana, İndoneziya, Malayziya, Pakistan, Rusiya, Syerra-Leone, Mərakeşi misal göstərmək olar.

Tədbirdə İndoneziya Respublikasının Azərbaycandakı səfiriyinin 3-cü katibi Wanda






performances, cultural presentations, exhibitions, and food displays. Participating countries included Afghanistan, China, Comoros Islands, Ghana, Indonesia, Malaysia, Pakistan, Russia, Sierra Leone, and Morocco.

The event was also attended by Wanda Widya, the third secretary of the Indonesian Embassy in Azerbaijan; Sona Hajiyeva, a specialist in immigrant education at the International Committee of the Red Cross; and Nigar Aghayeva and Ayan Mukhtarli from the United Nations High Commissioner for Refugees




Widya, Beynəlxalq Qızıl Xaç Komitəsində İmmiqrantların təhsili üzrə mütəxəssis Sona Hacıyeva, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin əməkdaşları Nigar Ağayeva və Ayan Muxtarlı tələbələri təbrik ediblər.

Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru Prof. Dr. Alptekin Yasım, rektor assistentləri Prof. Dr. Nuri Kahveci və Prof. Dr. Orhan Doğan, baş katib Ali Rıza Bekler də tədbirə qatılmışdılar. Prof. Akad. Hamlet İsaxanlı və Prof. Dr. Alptekin Yasım çıxışlarında bu cür mədəniyyət mübadiləsinə istiqamətlənən tədbirlərin əhəmiyyətini və vacibliyini vurğulayıblar.

Tədbirin sonunda müxtəlif ölkələrin mətbəxlərinin təqdimatı baş tutub.

delegation in Azerbaijan.

Rector of Kahramanmarash Sutchu Imam University Prof. Dr. Alptekin Yasım, Rector's assistants Prof. Dr. Nuri Kahveci and Prof. Dr. Orhan Dogan, and Secretary General Ali Riza Bekler also attended the event. Prof. Acad. Hamlet Isakhanlı and Alptekin Yasım highlighted the significance of such cultural exchange events. The event concluded with the presentation of cuisines from various countries.



"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# ƏDƏBİYYAT İNSTİTUTUNDA "BÖYÜK TÜRKMƏN ŞAİRİ MƏHTİMQULU FƏRAQİ VƏ AZƏRBAYCAN" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS

Ədəbiyyat İnstitutu və Türkmənistanın ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə türkmən ədəbiyyatının görkəmli klassik şairi və filosofu Məhtimqulu Fəraqinin anadan olmasının 300 illiyi münasibətilə "Böyük türkmən şairi Məhtimqulu Fəraqi və Azərbaycan" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Konfransda Türkmənistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov, Türkmənistan Elmlər Akademiyasının prezidenti, professor Allaberdi Aşırov, türkmənistanlı alimlər və media münayəndələri iştirak ediblər.

Öncə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Məhtimqulu Fəraqi və Türkmən Ədəbiyyatı Mərkəzinin açılışı baş tutub. Mərkəzdə Azərbaycanın və Türkmənistanın bayraqları, iki ölkənin görkəmli dövlət və siyasət xadimlərinin şəkilləri, eləcə də Məhtimqulu Fəraqi və digər türkmən mütəfəkkirlərinin kitablarının nümayiş olunduğu sərgi qurulub. AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkmənistan Elmlər Akademiyasının prezidenti və qardaş ölkənin Azərbaycandakı səfirinin iştirakı ilə belə bir mərkəzin açılmasını tarixi hadisə kimi dəyərləndirib, mərkəzin dostluq və qardaşlığımızın daha da möhkəmlənməsinə töhfə verəcəyini vurğulayıb. O, mərkəzdə Türkmənistan ədəbiyyatının araşdırılması yönündə mühüm işlərin aparılacağını bildirib.

Sonra konfrans iştirakçıları Məhtimqulu Fəraqiyə həsr olunmuş kitablardan ibarət sərgiyə baxış keçiriblər.

Beynəlxalq tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq, Azərbaycan və Türkmənistanın dərin köklərə, ortaq milli-mədəni və mənəvi dəyərlərə, zəngin ənənələrə mənsub dövlətlər olduğunu bildirib.

"Ulu Öndər Heydər Əliyev Azərbaycan-Türkmənistan əlaqələrinin böyük təməllərini yaratmışdır", - deyən akademik İsa Həbibbəyli ölkə Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki çıxışı zamanı Türk dünyası ilə əməkdaşlığı dövlət siyasətində əsas prioritet kimi müəyyənləşdirdiyini



*Töhfə Talıbova, Qurbanməmmet Elyasov, İsa Həbibbəyli, Allaberdi Aşırov, İsmixan Osmanlı, Həzrətqulu Durdıyev*

və Türk Dövlətləri Təşkilatını vahid bir ailə kimi təsvir etdiyini xatırladıb. O, Azərbaycanda Məhtimqulu Fəraqi və Türkmən Ədəbiyyatı Mərkəzinin açılmasını və böyük türkmən şairi Məhtimqulu Fəraqinin 300 illiyinin qeyd olunmasını Azərbaycan və Türkmənistan Elmlər akademiyalarının dövlət başçısının "öz ailəmiz" adlandırdığı türk dünyasına ortaq xidməti kimi səciyyələndirib. İki elmi qurum arasındakı əlaqələrdən bəhs edən AMEA rəhbəri qarşılıqlı əməkdaşlığın son illərdə daha da inkişaf etdiyini diqqətə çatdırıb, bugünkü konfransın bu əlaqələrin möhkəmlənməsinə zəmin yaradacağını vurğulayıb.

Akademik İsa Həbibbəyli bildirib ki, türkmən xalqının qüdrətli şairi Məhtimqulu Fəraqi türkmən ədəbiyyatının zirvəsini təşkil edir. O, sadə xalq dilində və xalq ədəbiyyatı ənənələri əsasında yazdığı şeirləri ilə türkmən xalqının düşüncəsində hakim olmuşdur. Türkmən xalqının XVIII əsrdəki birliyi, həmrəyliyi, dövlətçilik təfəkkürü ədibin əsərlərində geniş şəkildə əks olunmuşdur. Məhtimqulu Fəraqinin qiymətli irsinin öyrənilməsinin, tədqiqi və nəşrinin ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrin inkişafında böyük əhəmiyyət daşıdığını söyləyən AMEA prezidenti Fəraqinin türk-müsəlman dünyasının və ümumən bəşəriyyətin yetişdirdiyi görkəmli sənətkar olduğunu vurğulayıb. O, Məhtimqulu poeziyasında şairin Azərbaycanla bağlılığının əyani şəkildə meydana çıxdığını, ədibin ölkəmizdə səfərdə olduğunu və şeirlərindən birini Nuxaya - indiki Şəki şəhərinə həsr etdiyini söyləyib. Qeyd edib ki, görkəmli mütəfəkkir Azərbaycan-Türkmənistan arasında körpü rolunu oynayıb.

Akademik İsa Həbibbəyli Məhtimqulu Fəraqinin əsərlərinin Azərbaycanda dəfələrlə nəşr olunduğunu, ölkəmizdə onun yaradıcılığına həsr olunmuş müxtəlif tədbirlərin keçirildiyini bildirib. Həmçinin, Ədəbiyyat İnstitutu tərəfindən türkmən şairinin seçilmiş əsərlərindən ibarət "Divan"ının ilk dəfə doğma dilimizdə çap olunduğunu diqqətə çatdırıb. AMEA

*(Ardı səh. 38-də)*

rəhbəri çıxışının sonunda Türkmənistan Elmlər Akademiyası prezidentinin iştirakı ilə keçirilən bugünkü tədbiri birliyimizin, elmi əməkdaşlığımızın nümunəsi kimi dəyərləndirib, Məhtimqulu Fəraqinin 300 illiyinə həsr edilən beynəlxalq konfransın işinə uğurlar arzulayıb.

Sonra Türkmənistan Elmlər Akademiyasının prezidenti professor Allaberdi Aşırov çıxış edərək, xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərindən söz açıb, tədbirin iki ölkə arasındakı ədəbi əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Azərbaycanda, xüsusilə də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Məhtimqulu Fəraqinin yaradıcılığının nəşri və təbliği sahəsində görülən işləri yüksək qiymətləndirən professor Allaberdi Aşırov qardaş ölkədə şairin xatirəsinin sonsuz ehtiramla anıldığını bildirib.

Türkmənistan Elmlər Akademiyasının prezidenti vurğulayıb ki, Məhtimqulu Fəraqinin Azərbaycan ədəbiyyatı ilə bağlılığı həmişə diqqəti cəlb edib. Onun "Yaylaqları var" şeiri Azərbaycana həsr edilib. Şair öz şeirlərində dönə-dönə görkəmli Azərbaycan şairlərinin - N.Gəncəvinin, İ.Nəsiminin, M.Füzulinin adlarını çəkib. Natiq bugünlərdə Məhtimqulu Fəraqinin 300 illiyi münasibətilə Türkmənistanın paytaxtı Aşqabadda ədibin nəhəng abidəsinin ucaldığını qeyd edib.

Tədbirdə Türkmənistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov çıxış edərək, Azərbaycanda Məhtimqulu Fəraqi yaradıcılığına göstərilən diqqətə və tədbirin yüksək səviyyədə təşkilinə görə AMEA rəhbərliyinə təşəkkür edib. Səfir bugünkü konfransın qədim tarixə, zəngin ənənələrə malik türkmən və Azərbaycan xalqlarının mənəvi dəyərlərini nümayiş etdirdiyini bildirib. Qurbanməmmet Elyasov qeyd edib ki, Məhtimqulu ölkələrimiz arasındakı həm siyasi, həm də sosial sahədəki dostluq və qardaşlığın simvoludur. O, türk dünyasını, Azərbaycanı dərin məhəbbətlə sevmiş, bu ölkəni qarış-qarış dolaşmış, bu doğmalığı şeirlərində dilə gətirmişdir.

AMEA alimləri tərəfindən Məhtimqulu Fəraqinin əsərlərinin Azərbaycan dilinə tərcümə olunduğunu, onun kitablarının dəfələrlə qardaş ölkədə çap olunduğunu deyən səfir böyük türkmən şairinin yaradıcılığının, zəngin ədəbi irsinin daim Azərbaycan xalqının marağında olduğunu vurğulayıb.

Sonra Məhtimqulu Fəraqiyə həsr olunmuş video-çarx nümayiş olunub. Akademik İsa Həbibbəylu türkmən ədəbiyyatına aid yeni çapdan çıxmış kitabları qonaqlara hədiyyə edib.

Konfransda Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu Fəraqi adına Dil, ədəbiyyat və Milli əlyazmalar İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Həzrətqulu Durdıyev "Məhtimqulu: insanlığın şairi", Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Məmməd Əliyev "Məhtimqulu Fəraqi və Molla Pənah Vaqif şeirinin özəllikləri", filologiya üzrə fəlsəfə doktoru, dosent İsmixan Osmanlı "Məhtimqulu Fəraqinin poema yaradıcılığı", Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu Fəraqi adına Dil, ədəbiyyat və Milli əlyazmalar İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Çarı Kulıyev "Məhtimqulu yaradıcılığına eşq poeziyasının təsiri", Ədəbiyyat İnstitutunun Elmi nəşrlər və proqnozlaşdırma şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Töhfə Talıbova "Azərbaycan-Türkmənistan ədəbi əlaqələri Ədəbiyyat İnstitutunun alimlərinin araşdırmalarında", Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu Fəraqi adına Dil, ədəbiyyat və Milli əlyazmalar İnstitutunun böyük elmi işçisi Dövlətgəldi Seyidov "Məhtimqulu Fəraqi: dövlətli-dövranlı türkmən balası" adlı məruzələrlə çıxış ediblər.

# İRAQ TÜRKMANLARININ GÖRKƏMLİ TƏDQİQATÇISI ƏTA TƏRZİBAŞININ ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏDBİR




*Mehman Həsənli*

Türkiyənin Ankara şəhərində TÜRKSOY-un təşkilatçılığı ilə İraq türkmanlarının görkəmli tədqiqatçısı Əta Tərzibaşının anadan olmasının 100 illiyinə həsr edilmiş tədbir keçirilib.

Tədbir çərçivəsində Dr. Şəmsəddin Kuzəçinin "Kərkükün təməl daşı Əta Tərzibaşı" adlı kitabının təqdimatı olub.

Əta Tərzibaşıya həsr olunmuş tədbirdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli və institutun elmi işçisi Orxan İsayev məruzə ilə çıxış ediblər.

Tədbirdən sonra Ədəbiyyat İnstitutunun əməkdaşları TÜRKSOY-un Baş katibinin müavini Sayit Yusuf, Kərkük Kültür Dərnəyinin rəhbəri Şəmsəddin Kuzəçi və İraq-türkman tədqiqatçısı Necat Kövsəroğlu ilə görüşüb, fikir mübadiləsi aparmış, Azərbaycan Milli Elmlər Akademiyasında İraq türkmanlarının ədəbiyyatı, dili, folkloru və tarixinin araşdırılması, öyrənilməsi ilə bağlı görülən işlər barədə məlumat vermişlər.



*Sayit Yusuf, Orxan İsayev*

**Gülnar Səma**

***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu***
***İctimaiyyətlə əlaqələr şöbəsi***



# ŞAHMAT EHTİRASI

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 437-ci, 438-ci, 439-cu (mart, aprel, may 2024-cü il) nömrələrində*

## Şahmatçının şahmatdan kənardakı dünyası

Görkəmli şahmatçıların, o cümlədən, dünya çempionlarının bir qismi şahmatla yanaşı bir və ya bir neçə digər yaradıcı fəaliyyət növü ilə məşğul olmuş, orada da uğur qazanmışlar. Bu cür əhatəli zəka sahibləri sırasında şahmat üzrə 2-ci dünya çempionu Emanuel Lasker`i tanıdıq. O, tək şahmat tarixində deyil, riyaziyyat tarixində də qalacaq – riyaziyyatda şöhrəti şahmatdakına çatmasa da. Onun siyasi-fəlsəfi kitab və məqalələri çox tanınmasa da, maraqlıdır. Lasker strateji düşüncə tələb edən digər oyunlara da ciddi maraq göstərmiş, dövrünün ən güclü qumar – *Bric* (*Bridge*) və *Go* oyunçularından biri olmuş, hətta *Lasca* adlandırdığı yeni bir oyun da düzəltmiş, bu oyunların riyazi-strateji təhlilinə həsr olunmuş əsərlər yazmışdır.



*Go oyunu*




*Lasca oyunu*

Qədim Çində icad olunmuş və Şərqi Asiyada geniş yayılmış masaüstü Go lövhə-taxtası, şahmatdakı xanalarla bölgüdən fərqli olaraq, şaquli (vertikal) və üfüqi (horizontal) düz xətlərdən ibarət şəbəkədir. Yüksək yarışlarda 19 x 19 ölçülü şəbəkə, digər yarışlarda (məsələn, yeni öyrənənlər üçün yarışlarda) 9 x 9 və ya 13 x 13 ölçülü şəbəkə lövhələr üzərində oynanılır. Ağ və qara oyun daşları kəsişmə nöqtələri üzərinə qoyulur və hər oyunçu daha böyük ərazi zəbt etməyə çalışır. Oyunçu öz daşları ilə rəqib daşını tam əhatə edə bilsə, "həbs olunan" o daşı götürür... Lasker "Lasca" ("Laska")

adlı oyun düzəltməklə kifayətlənməmiş, onu güclü təbliğ etmişdi. Lasker 7 x 7 ölçülü taxta-lövhə üzərində düzəltdiyi bu oyunun ilkin deyasını rus "şaşki" oyunundan götürmüşdü. Oyunçu rəqibin daşını vuranda onu kənara çıxarmır, öz daşının altına qoyur. Beləliklə, daşlardan ibarət bürclər (qüllələr) əmələ gəlir. Oyunçu bürcü vurmalı olanda onun ən üstdəki daşını götürür, bu zaman ən üstdəki daş rəqibin daşı isə, bürc tam götürülür...

François-André Danican Philidor (1726-1795) – dövrünün bu ən güclü şahmatçısı 18-ci əsr opera tarixində iz buraxmış bəstəkardır. Philidor musiqi ənənəsi olan tanınmış nəslin nümayəndəsi olub. 6 yaşından Versailles`də (Versalda) kral xorunda oxuyan Philidor orada şahmat oynayan müsuqiçilərdən şahmat öyrənmişdi. 12 yaşında ilk musiqi əsərini – çoxsəsli vokal motet`ini bəstələmişdir. Philidor tezliklə musiqi dərsləri verməyə başlamış, 1753-cü ildən ömrünün sonunadək ciddi musiqi əsərləri üzərində işləmiş, o cümlədən, çoxsaylı (30-a yaxın) opera yazmışdır. Philidor`un məşhur musiqi əsərləri arasında *Ernelinde, princesse de Norvège* (1767) adlı lirik-tragedik operası və *Tom Jones* (1765) operasını (librettosu Henry Fielding`in eyni adlı romanı (novel) əsasında işlənmişdi) göstərmək olar. *Tom Jones* müxtəlif dillərə tərcümə olunmuş və müxtəlif ölkələrdə oynanılmışdı. Philidor`la yarışmalı olan bir musiqiçinin sevgi hekayəsi əsasında yazılmış bir aktlı *Battez Philidor! (Philidoru ud!)*



*François-André Danican Philidor*




*Paris Garnier Opera Teatrında büstü*



*Howard Staunton*

*(Beat Philidor!)* operası (1777) mövcuddur (bəstəkar: Amédée Dutacq).

Howard Staunton (1810-1874) dövrünün ən güclü şahmatçılarından biri, 1840-cı illərdə birinci şahmatçı kimi məşhurlaşmışdı. Şahmat strategiyası üzrə müasirləri arasında birinci sayılmışdır. Dünya çempionu Fisher onu, Steinitz`lə yanaşı, mövqe konsepsiyalarını dərindən mənimsəmiş və çağdaş şahmata yaxınlaşmış güclü oyunçu və çox güclü nəzəriyyəçi sayırdı; o, tarixin 10 ən böyük şahmatçısı sırasında Morphy`ni birinci, Stauntonu ikinci yerə yerləşdirmişdi (1964; The Ten Greatest Masters in History. Chessworld, Vol. 1, No 1, 56-61). Lasker`in dünya çempionu olduqdan sonra şahmatdan riyaziyyata doğru ciddi meyl etməsi fenomeni barədə yuxarıda söz açmışdım. Staunton da şahmat zirvəsində olduğu bir dövrdə, 1847-ci ildən başlayaraq Şekspirşünas (Shakespeare study) kimi fəaliyyət göstərməyə meyl etmişdir. Həmin 1847-ci ildə irihəcmli və uzunömürlü, çox istifadə olunan Şahmat oyunçusu üçün soraq (məlumat) kitabını (Chess-Player`s Handbook) yazdı; kitabda 300 səhifədən

artıq debüt və 100 səhifəyə yaxın endşpil təhlilləri verilmişdi. Staunton ilk böyük beynəlxalq şahmat turnirinin – görkəmli şahmatçıların dəvət edildiyi 1851-ci il London turnirinin əsas təşkilatçısı idi. İngilis debütü (1. c4) adı yəqin ki, Staunton`un bu başlanğıcı tətbiq etməsinə görə yaranmışdır. Xəstəlik onun şahmat praktikasına mənfi təsir göstədi. Staunton 1857-1860-cı illərdə Shakespeare`in əsərlərini Routledge nəşriyyatı üçün redaktə edib çapa hazırladı. Şahmat praktikasını dayandırandan sonra əsasən Shakespeare barədə yazmaqla məşğul oldu. 1865-ci ildə nəşr olunmuş "The Great Schools of England" adlı kitabında məktəblərin tarixi ilə yanaşı öz pedaqoji ideyaları haqqında da yazdı.

* * *

20-ci əsrin məşhur şahmatçıları arasında şahmat xaricində ciddi maraq dairələri və yaradıcı fəaliyyətləri olanları yada salmaq istəyirəm. Rusiya-Fransa qrossmeysteri Ossip Bernsteyn (1882-1962) və rus, polyak, alman və fransız mühitində yaşamış və yaratmış qrossmeyster Saveliy Tartakover (1887-1956) – hər ikisi hüquq doktoru idi. 4-cü dünya çempionu Aleksandr Alexin`in (1892-1946) hüquq doktoru olub-olmaması barədə fikir ayrılığı mövcuddur. Tartakover şahmat aləmində həm



*Ossip Bernsteyn*



*Saveliy Tartakover*

də öz aforizmi və atmacalı sözləri, həmçinin, kitabları ilə tanınmışdı. O, fəal jurnalist, kinossenarist, şair və tərcüməçi idi, ruscadan almanca və fransızcaya və almancadan ruscaya poetik tərcümələr etmişdi. Tartakover`in şahmatçılar arasında populyar olan atmacalarına misallar: 1) Təslim olmaqla heç vaxt oyun udulmayıb, 2) Oyunun qalibi o oyunçudur ki, o, axırıncı səhvdən əvvəlki səhvi edir, 3)Şahmat adamın öz səhvlərinə qarşı mübarizəsidir, 4) Pat şahmatın tragi-komediyasıdır, 5) Risk edən oyunçu uduza bilər, risk etməyən oyunçu həmişə uduzur, 6) Şahmatda ən ciddi qaydalar – qaydalardan istisnalardır...



*Milan Vidmar*

Sloveniya əsilli Milan Vidmar (1885-1962) – ilk yuqoslaviyalı şahmat qrossmeysteri, görkəmli elm adamı, elm və təhsil təşkilatçısı idi. Elektrik mühəndisliyi və elektrotexnika üzrə sanballı mütəxəssis olan professor Vidmar Lyublyana Universitetində dekan, prorektor və rektor vəzifələrində çalışmış, Sloveniya Elmlər və Sənətlər Akademiyasının prezidenti olmuşdu. 1948-ci ildə Lyublyanada təsis etdiyi və adını daşıyan Milan Vidmar Elektrik Enerjisi İnstitutu (The Milan Vidmar ElectricPower Institute) fəaliyyət göstərir. Mühüm beynəlxalq yarışlarda hakimlik etmişdir. 5-ci dünya çempionu, FIDE-nin (Fédération Internationale des Échecs – Beynəlxalq Şahmat Federasiyasının) prezidenti (1970-1978), Niderlandlı Max Euwe (1901-1993) riyaziyyat üzrə doktorluq müdafiə

etmiş, universitetlərdə riyaziyyatın tətbiqləri və kompüter proqramlaşdırma dərsləri vermişdi.



*Max Euwe*

Görkəmli amerikalı qrossmeyster Reuben Fine (Royben Fayn, 1914-1993) psixologiya üzrə doktor olmuş, şahmat və psixologiyanı paralel tutmağa çalışmış, sonda psixologiyaya üstünlük vermişdi. O, dünya çempionu Alexin öldükdən sonra (1946, Alexin dünya çempionu titulunda ölən ilk şahmatçı idi) yeni çempionu müəyyən etmək üçün 1948-ci ildə keçirilən turnirə dəvət edilən 6 məşhur şahmatçıdan biri olmuş, lakin, bu yarışdan imtina etmişdi. R. Fine həm şahmat, həm psixologiya üzrə maraqlı kitablar müəllifidir. Şahmatçının psixologiyası barədə kitab yazmış (The Psychology of the Chess Player. 1956, 1967), sonra Bobby Fisher`in dünya çempionu adını qazanması ilə bağlı bu məsələyə yenidən qayıtmışdı (Bobby Fischer's Conquest of the World's Chess Championship: The Psychology and Tactics of the Title Match, 1973). Psixologiya üzrə kitabları daha çoxdur. Freud`çi olan Fine psixoanaliz ilə məşğul olmuş, universitetərdə dərs demiş, kitablarının çoxu bu sahəyə həsr olunmuşdu; irihəcmli "A History of Psychoanalysis" (1979) kitabı populyar olub.



*Reuben Fine*

* * *

6-cı dünya çempionu, Sovet şahmat məktəbinin "patriarxı" Mixail Botvinnik (1911-1995) elektrik mühəndisi və kompüter elmləri üzrə mütəxəssis, texniki elmlər doktoru, professor idi. Elektrik maşınları və generatorlara aid elmi iş görürdü, asinxronlaşmış sinxron maşınlar üzrə işi ilə yüksək elmi nüfuz qazanmışdı (М.М. Ботвинник. Асинхронизированная синхронная машина. Госэнегоиздат, 1960). O, şahmat oynayan kompüter ideyası, mürəkkəb vəziyyətdə düzgün gediş tapmaq alqoritmi üzərində çalışmışdı (M.M. Botvinnik Алгоритм игры в шахматы, Москва Наука, 1968). Botvinnik`in metodu ayrılmış vaxtda baxılan variantların sayını azaltmaq, yəni, mümkün variantların mühüm sayılmayan bir qismini yaddan çıxarmaq ideyasına əsaslanmışdı. Bu maraqlı alqoritm, təəssüf ki,




*100 illiyinə (2011) Rusiya Bankının xatirə sikkəsi*



*Mixail Botvinnik*

sadə vəziyyətləri (məsələn, iki gedişə matı) yaxşı "görmürdü" və bütövlükdə baxılan oyun üçün yaramadı. Botvinnik süni intellektin iqtisadiyyatda tətbiqləri və qarışıq (plan və bazar yönlü) iqtisadiyyat və onun optimal idarəedilməsi ilə də məşğul oldu (və təbii ki, bu "qarışıq" iş "təmiz"



*Aleksandr Kotov*

sosializmdə rəğbət qazanmadı). O, şahmata aid yazdığı çoxsaylı kitablarla yanaşı, 1960-1989-cu illər arasında şahmat alqoritminə və texniki, iqtisadi məsələlərə aid çox kitab yazdı.

Sovet-rus qrossmeysteri Aleksandr Kotov (1913-1981) görkəmli mühəndis-konstruktor idi. O, 120 mm kalibrli sovet minomyotunun təkmilləşdirilməsi işinə rəhbərlik etmiş (1943), əməyinə görə Lenin ordeni ilə təltif edilmişdi (1944). Kotov roman, pyes və hekayələr müəllifi kimi tanınmış yazıçı idi. A. Alexin`in taleyinə həsr olunmuş "Белые и черные" ("Ağlar və qaralar") romanı üzrə "Белый снег России" ("Rusiyanın bəyaz qarı") bədii filmi çəkilmişdir (1980-ci il, rejissor : Yuriy Vişinskiy).



*Mark Taymanov*

Qrossmeyster Mark Taymanov (1926-2016) konsert proqramlarında çıxış edən çox tanınmış pianist idi, ifa etdiyi bəzi əsərlər yazıya alınmışdır. Onu *şahmatçılar arasında ən yaxşı müsiqiçi, musiqiçilər arasında ən yaxşı şahmatçı* adlandırmışdılar. Jurnalistlər Taymanov və Philidor`un şahmat və musiqini yanaşı tuta bilmələri, həm şahmat xanalarında, həm pianonun dillərində qara və ağ rənglərlə oynamaları barədə yazmışdılar. Taymanov özü bu iki peşə fenomenini belə şərh etmişdi: "xoşbəxtlikdən mən zəif xarakterə malik olmuşam, buna görə heç vaxt özümü yalnız bir peşəyə həsr etməyi qərarlaşdıra bilməmişəm. Və mən çox məmnunam" http://www.chessintranslation.com/2011/02/mark-taimanov-at-85/).

7-ci dünya çempionu Vasiliy Smıslov (1921-2010) bariton səsə



*Vasiliy Smıslov*



*Robert Hübne*

malik idi, amma, peşəkar opera müğənnisi yolunu seçmədi. Görkəmli alman qrossmeysteri Robert Hübner (1948) görkəmli filoloqdur, qədim mətnləri araşdırıb dərc edən papiroloq (papyrologist) kimi yaxşı tanınmışdır.

## Böyük yaradıcı insanların şahmat dünyası

İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, o sahədə çalışanlar şahmatı sevməsin, şahmat oynamasınlar. Sadə insanlar arasında da, sadə olmayanlar arasında da şahmat oyunu geniş yayılmışdır. Şahmat bilməmək musiqi duyğusu olmamaq kimi bir şeydir – belə düşünənlər var. Mənim bir məktəb, universitet və sənət dostum, həmkarım Türkiyəyə işləməyə getdi. Görüşlərimizin birində "sənə bir şey danışacam, inanmayacaqsan" dedi. Və danışdı: "Riyaziyyat kafedrasında boş vaxtlarımızın birində dedim ki, gəlsəniz 5-dəqiqəlik blitz şahmat oynayaq və biri professor, digəri dosent olan kafedra yoldaşlarım şahmat bilmədiklərini dedilər. Məni dəhşət bürüdü, necə yəni şahmat bilmirəm, ziyalı olasan, universitet adamı olasan və şahmat bilməyəsən. Belə şey mümkündürmü?!" Mənim bu dostum kimi düşünən və şahmat bilməyəni yazıq sayanlar az deyil. Bəlkə də bütün şahmatçılar belə düşünürlər. Məşhur alman şahmatçısı, kitabları və şahmat nəzəriyyəsinə verdiyi töhfələrə görə "Dünya şahmat müəllimi" kimi tanınan Siegbert Tarrasch`ın (Ziqbert Tarraş, 1862-1934) şahmat barədə dedikləri bir sıra ifadələr klassikləşib, məsələn, "Təhlükə onun icrasından daha güclüdür" (Rusca çox işlədilir: "Угроза сильнее её исполнения"). "Taxtanın kənarındakı at – ayıbdır!" ("Конь на краю доски – позор!"). S. Tarrasch`ın şahmatdan xəbəri olmayanlar haqqında bir sözünü yada salıram: "Şahmat bilməyən adama bir qədər yazığım gəlir, necə ki, sevgidən xəbəri olmayan adama yazığım gələrdi. Şahmat da sevgi kimi, musiqi kimi insanları xoşbəxt etmək gücünə malikdir". (https://ru.citaty.net/avtory/zigbert-tarrash).



*Siegbert Tarrasch*

Çox məşhurlar, tarixi şəxsiyyətlər şahmat oynamağı sevmişlər. Elm və təhsil adamları, musiqiçilər, şair və yazıçılar, təsviri incəsənət adamları, həkim və mühəndislər, siyasət və dövlət adamları şahmat oynamışlar, şahmat oynayırlar. Onlar arasında şahmata vurğun olanlar az deyil. Əsas sənəti şahmat olmayan məşhurların və ya bəzi hallarda şahmatla digər maraqlarını yan-yanaşı tutmağa çalışan məşhur insanların şahmat sevgisi, şahmat azarı və ya şahmat xəstəliyi şahmatın cazibə qüdrətini nümayiş etdirir. Böyük insanların şahmata marağı geniş yayılsa da, bu maraq təbii olsa da, bu şəxslərin oyun gücü müxtəlif olub, indi də müxtəlifdir; az bir qismi peşəkara yaxın gücdə oynayır, bəziləri yaxşı mövqe qiymətləndirmə qabiliyyətinə və kombinasiyalı oyun gücünə sahibdir, digərləri (çoxu) o qədər də güclü deyil və ya zəif oyunçudur...

Böyük maarifçi, şair, yazıçı, publisist, dinşünas və tarixçi Voltaire ("Volter", 1694-1778) şahmatı çox sevirdi. O, 17 il ərzində keşiş (iezuit) Adam ata ilə şahmat oynamışdır. İsveçrəli rəssam Jean Huber 1770-1775-ci illər arasında onların oyununu seyr edərək "Adam ata ilə



Voltaire



Adam ata ilə şahmat oynayan Voltaire



J-J. Rousseau

şahmat oynayan Voltaire" adlı şəkil çəkmişdir. Həmin şəkil Peterburqda, Dövlət Ermitaj Muzeyindədir; bu rəsmi Voltaire`ə çox hörmət bəsləyən, onunla yazışan rus imperatoru 2-ci Yekaterina almışdı.

Voltaire güclü şahmatçı deyildi, Adam ata çox zaman onu udurdu. Voltaire`in şahmat ehtirasını bilən dostları bəzən ona qəsdən uduzurdular. Voltaire`ə görə "şahmat insan ağlına ehtiramı ən çox əks etdirən oyundur". Həyata baxışda Voltaire`nin barışmaz rəqibi olan, şahmatı çox sevən və 40 ildən artıq şahmat oynayan J-J. Rousseau ("Jan-Jak Russo", 1712-1778) da güclü şahmatçı deyildi (və özü də bunu etiraf edirdi); lakin, şahmatın onun siyasi yazılarına təsir etdiyi deyilir.

* * *



Benjamin Franklin

Amerikanın bani-atalarından (Foundung Fathers) biri olan Benjamin Franklin (1706-1790) böyük elm adamı və ixtiraçı, siyasətçi və dövlət xadimi, maarifçi, jurnalist və naşir olmuş, University of Pennsylvania`nın əsasını qoymuşdur. Güman edilir ki, B. Franklin adı şahmatçı kimi çəkilən ilk amerikalı (gələcək ABŞ vətəndaşı) olub.

Franklin şahmat oynamağa başı qarışanda hər şeyi unudurmuş. Gecələr şahmat oynamağı çox sevər, çox şam yandırarmış. Xanım dostu fransız bəstəkarı və ifaçısı Madame Brillon de Jouy`in (1744-1824) vannada qaldığını unudaraq Franklinin qarşıdakı hamam otağında gecə yarıyadək şahmat oynadığı deyilir (Hagedorn, Benjamin Franklin and Chess in Early America (Philadelphia, 1958), p. 83). Bir dəfə bir fransız nazirin evində gecə şahmat oynayarkən Konqresdən gələn mühüm məlumatla oyun bitməmiş tanış olmaqdan imtina etmişdi (Vincent Le Ray de Chaumont, Souvenirs des Etats-unis. Paris, 1859; pp. 6–7).




*La Regence kafesi*



*P. Saint-Amont və H. Staunton*

Franklin 1786-cı ilin dekabr ayında "Columbian magazine"də "Şahmat tərbiyəsi" ("The Morals of Chess") adlı essesini dərc etdirdi. ABŞ-da şahmat haqqında ikinci yazı olduğu güman edilən bu esse çox populyarlaşdı, tez-tez nəşr olundu və başqa dillərə çevrildi. Onun ruscaya tərcüməsinin (1791) Rusiyada şahmat haqqında ilk ciddi yazı olduğu deyilir. Franklin şahmatın qabağı, yaxın gələcəyi görmək, ayıq-sayıq olmaq, hərəkət meydanını bütövlükdə görmək və ehtiyatlı olmaq, tələsik hərəkət etməmək kimi keyfiyyətləri aşıladığını yazır.



*La Regence kafesi 1874-cü ildə*

Fransada ABŞ-ın ilk səfiri olduğu müddətdə (1776-1785) Franklin`in şahmata sevgisi çox artmış, Paris şahmat həyatının mərkəzi olan Café de La Regence ("Rejans") onun sevimli yerinə çevrilmiş, deyilənə görə orada məşhur Philidor`la tanış olmuşdur. 1681-ci ildə

(başqa adla) açılan bu kafe 1715-ci ildə "La Regence" adı aldı.

18-19-cu əsrlərdə bu kafe şahmat dünyasının sanki mərkəzi idi. Bu kafe şahmatçıların və şahmat sevən, şahmat oynayan məşhur insanların yığışdığı, şahmat oynadığı, oyunlara baxdığı bir yer idi. Müxtəlif zamanlarda bu kafedə Philidor, P. Morphy, Adolf Andersson, L. Kieseritzky ("Kizeritski"), de La Bourdonnais, W. Steinitz, M. Çiqorin kimi məşhur şahmatçılar gün keçirir, şahmat oynayırdılar. P. Saint-Amont və H. Staunton arasında və Morphy ilə D. Harrwitz arasındakı matç burada keçirilmişdi.

Bu sonuncu matç ərəfəsində bu kafedə P. Morphy taxtaya baxmadan bir dəstə şahmatçı və həvəskarlarla seans keçirmişdi. Voltaire, J-J Rousseau, D. Didro, Franklin, M. Robespierre, Napoleon Bonaparte, İ. Turgenev bu kafedə şahmat oynamış, K. Marx ("Marks") və F. Engels burada tanış olmuş, ömürlük dosta və həmkara çevrilmişdilər.



*Napoleon Müqəddəs Yelena adasında*



*"Napoleon və Cardinal". Jean-Georges Viber`ə məxsus rəsm*

* * *

1794-cü ildən başlayaraq gənc Napoleon bu kafeyə tez-tez gəlir, oynayanlara baxır, özü də oynayırdı. Onun 1798-ci ildə üstündə şahmat oynadığı mərmər masa muzey əşyası kimi saxlanılır. Məlum və naməlum rəssamlar Napoleon və şahmat mövzusunda çox rəsm əsərləri çəkmişlər; bu mövzu ədəbiyyat və filmlərdə də öz əksini tapmışdır.

Xatirələrə görə Napoleon zəif şahmatçı idi (H.J.R. Murray -1913, səh. 877 və b.), sürətlə tez hücuma keçib udmaq istəyir, rəqibi çox fikirləşəndə, xüsusilə oyunu uduzanda çox əsəbiləşirmiş. "Şahmat oyun kimi çox çətindir, lakin elm və sənət kimi ciddi deyil" ifadəsini ona aid edirlər.

*(Davamı var)*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "FİLOMAT" JURNALINDA

## MATHEMATICS DEPARTMENT PROFESSORS' JOINT ARTICLE IN "FILOMAT" JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlı və eyni departamentin professoru Biləndər Allahverdiyevin "Spectral expansion for impulsive dynamic Sturm-Liouville problems on the whole line" ("Bütün oxda təyin edilmiş impulsiv dinamik Şturm-Liuvill məsələləri üçün spektral ayrılış") adlı birgə məqaləsi "Filomat" jurnalında (2024, cild 38, № 9) dərc edilmişdir. Qeyd edək ki, "Filomat" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə $(-\infty,\infty)$ intervalında təyin edilmiş impulsiv dinamik Şturm-Liuvill məsələsi tədqiq edilir. Bu məsələnin spektral matris-funksiyası qurulur. Qoyulan məsələ üçün Parseval bərabərliyi isbat olunur və məxsusi funksiyalar üzrə ayrılış düsturu əldə edilir.

The joint article of Khazar University founder, chairman of the Board of Directors and Trustees, professor of the Department of Mathematics, academician Hamlet Isakhanli and professor of the same department Bilander Allahverdiyev entitled "Spectral expansion for impulsive dynamic Sturm-Liouville problems on the whole line " was published in "Filomat" journal (2024, Volume 38 , No. 9). Note that "Filomat" journal is indexed in "Web of Science" and "Scopus" databases.

The paper studies an impulsive dynamic Sturm-Liouville problem on the interval $(-\infty,\infty)$. A spectral matrix-valued function for this problem is obtained. Parseval equality and an eigenfunction expansion are given.

*https://www.pmf.ni.ac.rs/filomat-content/2024/38-9/FILOMAT%2038-9.html*
*https://journal.pmf.ni.ac.rs/filomat/index.php/filomat*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "FİLOMAT" JURNALINDA

## MATHEMATICS DEPARTMENT PROFESSOR'S ARTICLE PUBLISHED IN 'FILOMAT' JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Spectral problems of non-self-adjoint singular q-Sturm-Liouville problem with an eigenparameter in the boundary condition" ("Sərhəd şərtində spektral parametr olan öz-özünə qoşma olmayan sinqulyar q-Şturm-Liuvill operatorunun spektral məsələləri") adlı məqaləsi "Filomat" (2024, cild 38, № 10) jurnalında dərc olunub.

Məqalədə sərhəd şərtində spektral parametr olan öz-özünə qoşma olmayan (dissipativ) q-Şturm-Liuvill sərhəd məsələsi (limit-çevrə halında) tədqiq edilir. Dissipativ operatorun funksional modeli qurulur və dilatasiyanın səpilmə funksiyası vasitəsi ilə onun xarakteristik funksiyası tapılır. Dissipativ operatorun və q-Şturm-Liuvill sərhəd məsələsinin məxsusi və qoşulmuş vektorlar sisteminin tamlığı haqqında teoremlər isbat olunur.

The article by Bilander Allahverdiyev, professor of the Department of Mathematics of Khazar University, entitled " Spectral problems of non-self-adjoint singular q-Sturm-Liouville problem with an eigenparameter in the boundary condition " was published in the journal "Filomat" (2024, Vol. 38, No. 10). Note that "Filomat" is indexed in "Web of Science" and "Scopus" databases.

In this paper, a nonselfadjoint (dissipative) q-Sturm-Liouville boundary value problem in the limit-circle case with an eigenparameter in the boundary condition is investigated. A functional model of the dissipative operator is constructed and its characteristic function in terms of scattering function of dilation is defined. Theorems on the completeness of the system of eigenvectors and the associated vectors of the dissipative operator and the q-Sturm-Liouville boundary value problem are presented.

*https://www.pmf.ni.ac.rs/filomat-content/2024/38-10/FILOMAT%2038-10.html*
*https://journal.pmf.ni.ac.rs/filomat/index.php/filomat*

# PROF.AKAD. HAMLET İSAXANLI NOBEL QARDAŞLARININ YARATDIĞI MƏKTƏBİN YUBİLEYİNDƏ



# PROF. ACAD. HAMLET ISAKHANLI ATTENDS ANNIVERSARY OF NOBEL BROTHERS' FOUNDED SCHOOL

Mayın 21-də Nobel qardaşlarının Ev Muzeyində onların yaratdığı Bakı şəhəri 56 nömrəli tam orta məktəbin 140 illik yubileyinə həsr olunmuş mərasim keçirilib. Tədbirdə Milli Məclis üzvləri, Elm və Təhsil Nazirliyi, Bakı Şəhər Təhsil İdarəsi, Nobel İrsi Fondu və İsveç səfirliyinin əməkdaşları, bir sıra ali təhsil müəssisələrinin rəhbələri, o cümlədən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı iştirak ediblər.

Qonaqlar təbrik nitqi söyləyiblər. Xəzər Universitetinin rəhbəri Hamlet İsaxanlı çıxışında qeyd etdi ki, sənayeləşmə dövründə yaradılan ilk məktəblər sənayenin ehtiyaclarını nəzərə alırdı: "Sənayeləşmə təhsilə tamam başqa bir tələbat olduğunu ortaya qoydu. Bu səbəbə görə sənayeləşmə ilə bərabər elm də, təhsil də inkişaf etdi. Azərbaycanda da sənayeləşmə, yüngül sənaye olub. Amma Azərbaycanda ağır sənayenin əsasını Nobel qardaşları qoyub. Məhz buna görə də Nobel qardaşları sənaye dövrünə uyğun müasir bir məktəb yaratdılar və məktəb bu gün də qabaqçıl təhsil

On May 21, a ceremony dedicated to the 140th anniversary of Baku secondary school No. 56 was held at the Home Museum of the Nobel brothers. The event was attended by members of the Milli Majlis, the Ministry of Science and Education, Baku City Education Department, officials of some state institutions, the Nobel Heritage Fund, employees of the Swedish Embassy, a number of higher education institutions, including the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli.

During the event, guests delivered congratulatory speeches. Prof. Acad. Hamlet Isakhanli, known for his close ties with the jubilee school, highlighted in his address the historical significance of the first schools established during the industrialization era: "Industrialization revealed a completely different need for education. For this reason, along with industrialization, science and education also developed. There was industrialization and light industry in Azerbaijan as well. But the foundation of heavy industry in Azerbaijan was laid by the Nobel brothers. That is why the Nobel brothers established a modern school tailored to the demands of the industrial age, which continues to excel as an educational institution today.

ocaqlarından biridir"

Məktəbin kollektivini təbrik edən H.İsaxanlı təhsil müəssisəsi ilə əməkdaşlığın davam etdiriləcəyini də bildirdi.

Qeyd edək ki, tədbirdə məktəbin sabiq direktoru, uzun illər Xəzər Universitetində çalışan tanınmış maarif işçisi Nanə Kələntərli də iştirak etmişdir.

"Azərbaycan müəllimi" qəzeti və saytında tədbir haqqında geniş reportaj dərc olunub.

Expressing congratulations to the school's staff, H. Isakhanli affirmed his commitment to ongoing collaboration with the educational institution.

Noted that Nane Kalantarli, the former director of the school, a well-known educational worker who worked at Khazar University for many years, also attended the event.

A comprehensive report on the ceremony was featured in the "Azerbaijani Teacher" newspaper and website.

*https://www.muallim.edu.az/news.php?id=30139*

## MƏDƏNİ ANTRPOLOGİYA VƏ FOLKLOR İNSTİTUTUNUN KOORDİNATORU BEYNƏLXALQ SİMPOZİUMDA



*Aynur Qəzənfərqızı*

## COORDINATOR OF THE INSTITUTE OF CULTURAL ANTHROPOLOGY AND FOLKLORE AT THE INTERNATIONAL SYMPOSIUM

Mayın 16-21-də Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızı Bursa Uludağ Universiteti və Yörük Türkmən Birliyinin təşkilatçılığı ilə keçirilən "Türk Dünyası Strateji Araşdırmalar / Avropada Türklər və Avropalı Türklər" adlı beynəlxalq elmi simpoziumda "Sindrella və Göyçək Fatma nağıllarında motivlər" adlı məruzə ilə çıxış edib.

Qeyd edək ki, simpoziuma 16 ölkədən 150-yə yaxın alim və mütəxəssis qatılıb.

From May 16-21, Aynur Gazanfargizi, the coordinator of the Institute of Cultural Anthropology and Folklore at Khazar University, took part in the international scientific symposium "Turkish World Strategic Research / Turks in Europe and European Turks," organized by Bursa Uludag University and the Yoruk Turkmen Union. At the symposium, Aynur Gazanfargizi delivered a speech titled "Motives in Cinderella and Beautiful Fatma Fairy Tales." The symposium spanned three days and featured approximately 150 scientists and experts from 16 countries.

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA




*Atilla Arkan* *Orxan Vəliyev*

# POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD SPEAKS AT INTERNATIONAL CONFERENCE

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2024-cü il mayın 21-22-də İstanbulda İbn Haldun Universiteti Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin təşkil etdiyi "Beynəlxalq Avrasiya Konfransı - 2024"- də iştirak edib.

Konfrans mərkəzin direktoru Prof. Yaşar Sarı`nın və qonaqların açılış nitqi ilə başlayıb. İki gün ərzində Macarıstan, Polşa, Azərbaycan, Orta Asiya və Çindən olan elm adamlarının və gənc tədqiqatçıların məruzələri dinlənilib.

Dr. Orxan Vəliyev konfransda "Post-konflikt Azərbaycanında milli siyasətin təkrar nəzərdən keçirilməsi və tarixin yenidən yazılması" mövzusunda məruzə ilə çıxış edib.

Mayın 22-də İbn Haldun Universitetinin rektoru Prof. Atilla Arkan`ın bağlanış nitqi və iştirakçılara sertifikatların verilməsi ilə konfrans öz işini başa çatdırıb. Təqdim edilən məruzələrin beynəlxalq statuslu İbn Haldun Universitetinin nəşriyyatında kitab şəklində çap olunması nəzərdə tutulur.

On May 21-22, Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy, attended the "International Eurasian Conference 2024" hosted by Haydar Aliyev Center for Eurasian Studies at Ibn Khaldun University in Istanbul.

The conference began with an opening speech by the center's director, Prof. Yashar Sarin, followed by remarks from other guests. Over two days, presentations were delivered by scientists and young researchers from Hungary, Poland, Azerbaijan, Central Asia, and China.

Dr. Orkhan Valiyev delivered a speech at the conference titled "Reviewing National Policy and Rewriting History in Post-Conflict Azerbaijan."

On May 22, the conference concluded with a closing speech by Ibn Khaldun University's rector, Prof. Atilla Arkan, and certificates were awarded to participants. The reports presented are set to be published by the publishing house of Ibn Khaldun University which holds international status.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ MÜƏLLİMİNİN KİTABI İRANDA NƏŞR EDİLİB




Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, Azərbaycanın tanınmış tarixçi alimi, tarix elmləri doktoru, Prof. Nəsiman Yaqublunun İranda “Məhəmməd Əmin Rəsulzadə, həyat və yaradıcılığı” kitabı nəşr edilib.”Nəbadi” mətbəəsində 650 səhifə həcmində nəşr edilən bu kitabda M.Ə.Rəsulzadənin Azərbaycanda, İranda, Türkiyədə, Polşada, Almaniyada və Fransadakı siyasi və ictimai fəaliyyəti əksini tapıb. Eyni zamanda, kitabda M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyəti dövründəki və mühacirət illərindəki çalışmaları da faktlar və sənədlərlə oxuculara təqdim edilib. Kitab İranda keçirilən sərgidə nümayiş etdirilib.

Qeyd edək ki, N.Yaqublunun M.Ə. Rəsulzadə irsi araşdırmaları ilə bağlı kitabları və yazıları Türkiyədə, Rusiyada və Polşada da nəşr olunub.

# HISTORY AND ARCHEOLOGY DEPARTMENT LECTURER'S BOOK PUBLISHED IN IRAN

The book "Mahammad Amin Rasulzade: Life and Creativity," authored by Khazar University's History and Archeology Department lecturer and well-known Azerbaijani historian, doctor of historical sciences, Nasiman Yagublu, was published in Iran. This 650-page book, published by the "Nabadi" printing house, details M. A. Rasulzade's political and social activities in Azerbaijan, Iran, Türkiye, Poland, Germany, and France. It also presents his work during the period of the Azerbaijan Republic and his years in emigration, supported by facts and documents. The book has been exhibited at an exhibition in Iran.

Note that N. Yagublu's books and articles on M. A. Rasulzade's heritage research have also been published in Türkiye, Russia, and Poland.

# VİLYAM ŞEKSPİRİN 460 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

# EVENT DEDICATED TO THE 460TH ANNIVERSARY OF WILLIAM SHAKESPEARE



*Milana Abbasova*



Mayın 22-də Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans - Konsert Mərkəzində İngilis dili və ədəbiyyatı departamenti Vilyam Şekspir`in 460 illik yubileyinə həsr olunmuş tədbir keçirdi.

İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova açılış nitqi ilə çıxış etdi. Baş müəllim Firəngiz Nəsirova çıxışmda Şekspirin məşhur sonetlərindən və əsərlərindən nümunələr səsləndirdi.

On May 22, the Department of English Language and Literature held a commemorative matinee event at Khazar University Fikret Amirov Concert Hall dedicated to the 460th birthday anniversary of William Shakespeare.

The head of the Department of English Language and Literature Dr. Milana Abbasova delivered a welcome speech to greet the attendance. Senior teacher Firangiz Nasirova's emotive speech was interspersed with popular quotes and sonnets from Shakespeare elicited from the student audience.



*ADU-nun baş müəllimi Təranə Həsənova (soldan ikinci) universitetin tələbələri ilə*

Xəzər Universitetinin məzunu Kamran Nəsirov Şekspirin "Hamlet" faciəsini necə yenidən dərk etməsindən danışdı və məşhur monoloqu söylədi.

İştirakçılar - Xəzər Universiteti və Azərbaycan Dillər Universitetinin tələbələri "Otello" operasından bir sıra fraqmentləri və R. L. Stivensonun Şekspirdən ilhamlanaraq yazdığı şeirini təqdim etdilər. F. Nəsirovanın rəhbərliyi ilə tələbə xoru "Romeo və Cülyetta"nın 1968-ci ildə ekranlaşdırılmış versiyasından mahnını səsləndirdilər.

2-ci kurs tələbələri Şayeste Mələkan və Ramalə Həsənovanın rəhbərlik etdiyi Xəzər Universiteti İncəsənət Klubunun tələbə aktyorları tərəfindən Şekspirin "Maqbet" faciəsindən səhnə nümayiş etdirildi. Suada Musatafayeva Şekspirin sonetlərindən nümunələr söylədi.

Tədbirin sonunda Prof. Akad. Hamlet İsaxanlı çıxış etdi və tələbələrin ifalarını yüksək qiymətləndirdi, onların istedadlarının yeni məkanlarda daha böyük tamaşaçı kütləsinə çatacağına ümid etdiyini bildirdi.

Azərbaycan Dillər Universitetinin baş müəllimi Təranə Həsənova proqram və tələbələrin çıxışları haqqında fikirlərini bölüşdü və universitetlər arasında əməkdaşlığın vacibliyini vurğuladı.



*Firəngiz Nəsirova*



*"Maqbet" tamaşasından: Coşqun Paşayev, Emil Qurbanbəyov*



*Suada Mustafayeva*

Khazar University alumnus Kamran Nasirov then shared his experience of being introduced to Shakespeare's plays and delivered world-famous monolog from Shakespeare's tragedy "Hamlet."

The participant students from Khazar University and Azerbaijan University of Languages presented a monolog fragment from Othello, and R. L. Stevenson's poem inspired by a Shakespeare's play. A student choir conducted by F. Nasirova sang an ever popular song from a 1968 screen version of "Romeo and Juliet".

Shakespeare's tragedy "Macbeth" was staged by student actors of Khazar University Art Club, led by 2nd year students Shayeste Melakan and Ramala Hasanova. Suada Musatafayeva delivered examples from Shakespeare's sonnets.

At the end of the event, Prof. Acad. Hamlet Isakhanli addressed the audience and the student actors and performers to commend the actors on their animated and talented performance and expressed a hope that their artistic spirit should find new venues and larger audiences.

Senior instructor of Azerbaijan University of Languages Tarana Hasanova shared her impressions of the program and students' performances and stressed the value of cooperation between the universities.

# XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ ETDİYİ LİTVA FİLMİ "USTAD VƏ TATYANA" NÜMAYİŞ ETDİRİLİB

Mayın 23-də *Landmark* iş mərkəzinin "GAİA" kino zalında Giedrė Žičkiten`in "Ustad və Tatyana" adlı sənədli filminin nümayişi baş tutub.

Film Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin və universitetin Tərcümə mərkəzinin rəhbərliyi ilə tərcümə ixtisasında təhsil alan 4-cü kurs tələbələri Asif Məmmədov, Gülsün Həmidova, və Xalidə Suleymanova tərəfindən Azərbaycan dilinə tərcümə edilib. Tədbirdə "Son fürsət" filminin tərcüməçilərindən biri Səriyyə Rəşidova və departamentin müəllimi Sonası Vəliyeva da iştirak ediblər.

Qeyd edək ki, film litvalı məşhur fotoqraf Vitas Lutkus`un həyat hekayəsindən bəhs edir. O, Litva mühitindən kənara çıxan və sovet respublikalarının reallığını sənədləşdirən fotoqraf idi.

Filmin nümayişinə başlamazdan öncə Litvanın Azərbaycandakı müvəqqəti işlər vəkili Viktoras Daqilis Xəzər Universitetinin rəhbərliyinə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirmiş, universitetin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova çıxış etmişdir. Sonra filmin Azərbaycan dilinə tərcüməsini və subtitrlərdə əks olunmasını təmin edən tələbələr mükafatlandırılıb.

# LITHUANIAN FILM "MASTER AND TATYANA" TRANSLATED INTO AZERBAIJANI BY KHAZAR UNIVERSITY STUDENTS SCREENED

On May 23, the documentary film "Master and Tatyana" by Giedrė Žičkite was screened at the "GAIA" cinema hall in the Landmark business center. The film was translated into Azerbaijani by fourth-year translation students Asif Mammadov, Gulsum Hamidova, and Khalida Suleymanova, under the guidance of Khazar University's Department of English Language and Literature and the Center of Translation and Interpretation. The event was also attended by Sariyya Rashidova, one of the translators of the film "Jump" and Sonasi Valiyeva, the lecturer of the department.

Note that the film chronicles the life of the famous Lithuanian photographer Vitas Lutkus. He was the first person to go beyond the Lithuanian environment and document the spontaneous reality of the Soviet republics.

Before the screening of the film, Lithuanian chargé d'affaires in Azerbaijan Viktoras Dagilis expressed his gratitude to the administration of Khazar University for their support and gave the floor to Milana Ababsova, the head of the Department of English Language and Literature of the university. An award ceremony followed, recognizing the students who contributed to translating and subtitling the film in Azerbaijani.



*Asif Məmmədov, Xalidə Suleymanova, Gülsün Həmidova, Viktoras Daqilis, Milana Abbasova, Səriyyə Rəşidova, Sonası Vəliyeva*



*Fəridə Seyidova (MƏFAİ), Nazım Xayranbayova, Nəzakət Məmmədli, Zübeydə Şadkam, Zəminə Ziyayeva (Xəzər Universiteti), Gülşad Abikova*

# QAZAXISTANLI QONAQLAR XƏZƏR UNİVERSİTETİNİN MÖVLANA ƏDƏBİ-FƏLSƏFİ ARAŞDIRMALAR İNSTİTUTUNDA

# GUESTS FROM KAZAKHSTAN AT KHAZAR UNIVERSITY'S MEVLANA INSTITUTE FOR LITERARY AND PHILOSOPHICAL STUDIES

Mayın 23-də Qazaxıstan Respublikası Milli Kitabxanasının Əlyazmalar bölməsinin müdiri Gülşad Abikova, Əl-Fərabi Universitetinin Yazma Əsərlər və Mədəni İrs Elmi Araşdırma Mərkəzinin müdiri Prof. Zübeydə Şadkam və həmin mərkəzin elmi işçisi Dr.Nazım Xayranbayova Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun (MƏFAİ) qonağı olublar. Qonaqlar institutun fəaliyyəti ilə tanış olmuş, birgə əməkdaşlıq üçün perspektivləri müzakirə etmişlər. İnstitutun direktoru, filologiya elmləri doktoru Nəzakət Məmmədli qonaqlara institutun nəşri və özünün müəllifi olduğu "Şeyx Fərideddin Əttar və Azərbaycan ədəbiyyatı" adlı kitabı hədiyyə etmişdir.

Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı ilə də görüşən qonaqlar Əl-Fərabi və Xəzər universitetlərində tədqiqat, nəşrlər barədə fikir mübadiləsi aparmış, birgə tədbirlərin təşkili ilə bağlı razılığa gəlmişlər.

Görüşün sonunda Hamlet İsaxanlı öz əsərlərindən qonaqlara hədiyyə etmiş və xatirə şəkli çəkdirmişdir.

On May 23, Gulshad Abikova, the head of the Manuscripts Department of the National Library of the Republic of Kazakhstan, Prof. Zubeida Shadkam, the head of the Scientific Research Center for Written Works and Cultural Heritage of Al-Farabi University, and Dr. Nazim Khairanbayova, a researcher of the same center, visited the Mevlana Institute for Literary and Philosophical Studies Khazar University. The guests got acquainted with the activities of the institute and discussed prospects for joint cooperation. Director of the institute, doctor of philological sciences Nazakat Mammadli presented the guests with the book "Sheikh Farideddin Attar and Azerbaijani literature" published by the institute.

Then the guests met Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, and exchanged ideas on research and publications at Al-Farabi and Khazar universities, and agreed on the organization of joint events.

At the end of the meeting, Hamlet Isakhanli presented his works to the guests and took a memory photo.

# MİLLİ HİDROMETEOROLOGİYA XİDMƏTİNDƏ TƏLƏBƏLƏRƏ MƏŞĞƏLƏ

Mayın 24-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin II kurs tələbələrinə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətində Meteorologiya və iqlimşünaslıq fənni (fənn müəllimi Cavid Hüseynov) üzrə məşğələ keçirilib.

Məşğələdə tələbələrə respublikanın hidrometeoroloji müşahidə şəbəkəsi, erkən xəbərdarlıq sistemləri, hidrometeoroloji stansiya, eləcə də məntəqələrdə istifadə edilən cihaz və avadanlıqlar, müşahidə məlumatlarının işlənməsi, proqnoz-xəbərdarlıqların hazırlanması və ötürülməsi haqqında geniş məlumat verilib. Sonra tələbələr proqnozların tərtibi zamanı istifadə olunan texnologiyalarla, sinoptik vizuallaşdırma, peyk və radar məlumatları ilə yaxından tanış olublar. Məşğələ zamanı tələbələri maraqlandıran suallar Milli hidrometeorologiya xidmətinin mütəxəssisləri tərəfindən ətraflı cavablandırılıb.

Müəllim Cavid Hüseynov səmərəli əməkdaşlığa və yaradılan şəraitə görə Xidmətin rəhbərliyinə təşəkkürünü bildirib.

# STUDENTS RECEIVE TRAINING AT NATIONAL HYDROMETEOROLOGICAL SERVICE

On May 24, the second-year students from Khazar University's Department of Geography and Environment received training at the National Hydrometeorological Service of the Ministry of Ecology and Natural Resources as part of the "Meteorology and Climate Science" course (course instructorJavid Huseynov).

During the training session, students received comprehensive information about our country's hydrometeorological observation network, early warning systems, hydrometeorological stations, and the devices and equipment utilized at these stations. They also learned about the processing of observational data, the preparation and dissemination of forecasts and warnings. Subsequently, the students were introduced to technologies employed in forecast preparation, synoptic visualization, and the interpretation of satellite and radar data.

Throughout the training, experts from the National Hydrometeorology Service provided detailed answers to students' questions. Instructor Javid Huseynov expressed appreciation to the Service's management for their effective collaboration and the conducive learning environment provided.



# XƏZƏR UNİVERSİTETİNDƏ ELMİ - TƏDQİQAT İNSTİTUTUNUN AÇILIŞI

# OPENING OF SCIENTIFIC RESEARCH INSTITUTE AT KHAZAR UNIVERSITY

Mayın 23-24-də Xəzər Universitetində keçirilmiş "Ozan-Aşıq Mədəniyyəti: Tarixi Köklər, Müasir Yanaşmalar və Perspektivlər" adlı Beynəlxalq Elmi Simpozium çərçivəsində mayın 24-də Xəzər Universitetinin Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) açılış toplantısı keçirilib. Tədbiri Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova giriş sözü ilə açıb. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı institutun fəaliyyət perspektivləri haqqında danışıb. İnstitutun direktoru Prof. Ali Duymaz tədbirə onlayn qoşularaq, öz təbriklərini və institutun fəaliyyəi ilə bağlı mülahizələrini çatdırıb. İnstitutun koordinatoru Dos. Aynur Qəzənfərqızı bu barədə daha ətraflı məlumat verib.

Tədbir beynəlxalq simpoziuma dəvət olunmuş Qazaxstandan akın Marat Sügirbay, Özbəkistandan baxşı İlhomjon Norov, Pakistandan damburaçı Şahan, Gürcüstandan aşıq Kamandar Solexey, aşıq Əfqan Şamilov və universitetin müəllimi aşıq Ramin Qarayevin ifasında musiqi nömrələri ilə davam edib. Sonda Dos.İradə Xəlilova və Prof.Akad. Hamler İsaxanlı tərəfindən iştirakçılara sertifikat təqdim olunub.

Xatirladaq ki, 2024-cü il fevralın 29-da Xəzər Universitetində Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) təsis edilməsi haqda əmr imzalanıb. İnstitut Xəzər Universitetinin nəzdində sərbəst bir struktur bölməsi kimi fəaliyyət göstərir. İnstitutun direktoru Prof. Ali Duymaz, koordinatoru Dos. Aynur Qəzənfərqızı təyin edilib.

İnstitut haqqında operativ və ətraflı məlumat almaq istəyənlər bu saytı izləyə bilərlər: *kumafi.com*

The opening meeting of Khazar University's Institute of Cultural Anthropology and Folklore (ICAF) took place on May 24 as part of the International Scientific Symposium "Culture of Ozan-ashugh: Historical Roots, Modern Approaches, and Perspectives" held at Khazar University on May 23-24. The event was inaugurated by Assoc. Prof. Dilbar Zeynalova, head of the Department of Languages and Literatures. Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, spoke about the institute's prospects. The institute's director, Prof. Ali Duymaz, participated online, extending his congratulations and comments on the institute's activities. Assoc. Prof. Aynur Gazanfargizi, the institute's coordinator, provided more detailed information.

The event featured musical performances by akyn Marat Sugirbay from Kazakhstan, bakshy Ilhomjon Norov from Uzbekistan, dombra player Shahan from Pakistan, ashug Kamandar Solekhey from Georgia, ashug Afgan Shamilov, and the university's faculty member ashug Ramin Garayev. At the end, certificates were awarded to participants by Assoc. Prof. Irada Khalilova and Prof. Acad. Hamlet Isakhanli.

Note that on February 29, 2024, an order was signed to establish the Institute of Cultural Anthropology and Folklore (ICAF) at Khazar University. The institute functions as an independent unit within Khazar University. Prof. Ali Duymaz was appointed as the director, and Assoc. Prof. Aynur Gazanfargizi as the coordinator of the institute.

For detailed and prompt information about the institute, visit the official website:

# FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNDƏ MAGİSTR TƏLƏBƏLƏRİN HAZIRLADIQLARI PROTOTİP QURĞULAR TƏQDİM OLUNDU



*Rəhim Əhmədov*



*Nicat Hacıyev*

# GRADUATE STUDENTS IN PHYSICS AND ELECTRONICS DEPARTMENT PRESENT PROTOTYPE DEVICES

Mayın 24-də Fizika və elektronika departamentinin dosenti Sevda Qəribovanın elmi rəhbərlik etdiyi magistr tələbələr Nicat Hacıyev və Rəhim Əhmədovun dissertasiya işlərinin ilkin müzakirəsi keçirildi və hazırladıqları prototip qurğular təqdim olundu.

Nicat Hacıyevin dissertasiya işi "AVR mikrokontrolleri ilə sənaye "seç və yerləşdir" robot qolunun layihələndirilməsi idi. Modul və adaptiv quruluşa malik hazırlanmış robot qol, mövcud istehsal qurğularına asan inteqrasiya olunmağa imkan verir. Robot öncədən proqramla yaddaşına verilmiş koordinatlardakı yükləri avtomatik olaraq götürür və digər koordinata yerləşdirir. Robotun nə qədər ağırlığa dözə biləcəyini müəyyən etmək üçün faydalı yükün kütləsi də ölçülmüş və müqayisə edilmişdir.

Rəhim Əhmədovun təqdim etdiyi dissertasiya işi isə "Avtomatik günəş izləyicisi ilə telefon şarj çeviricisinin hazırlanması" idi.

Avtomatik günəş izləyicisi ilə telefon şarj çeviricisi daha çox effektivlik əldə etmək məqsədilə dizayn edilmiş bir cihazdır. Cihazın əsas məqsədi günün istənilən saatında günəşin istiqamətini sensorlar vasitəsilə təyin etmək və paneli avtomatik olaraq hərəkətə gətirməkdir. İşin əsas üstünlüyü əl ilə daşına bilən olması və əldə olunan enerjinin batareyada saxlanılaraq, daimi işlək vəziyyətdə olmasıdır.

On May 24, a preliminary discussion of the dissertations by master's students Nijat Hajiyev and Rahim Ahmadov, supervised by Sevda Garibova, associate professor of the Department of Physics and Electronics, took place, and their prototype devices were showcased.

Nijat Hajiyev's dissertation, titled "Designing Industrial 'Pick and Place' Robotic Arm with AVR Microcontroller," involved developing a robotic arm with a modular and adaptive structure that allows for easy integration into existing production facilities.

The robot automatically picks up loads from predetermined coordinates stored in its memory and places them in another location.

Additionally, the payload mass was measured and compared to determine the robot's handling capacity.

Rahim Ahmadov's dissertation focused on developing a "Phone Charging Converter with Automatic Solar Tracker." This device is designed to improve efficiency by using sensors to track the sun's position throughout the day and automatically adjust the solar panel's orientation.

The primary advantage of this portable device is that the energy it collects is stored in a battery, ensuring continuous operation.

# "QOŞULMAMA HƏRƏKATI GƏNCLƏR TƏŞKİLATINDA BİRLİK MOZAİKASI: AFRİKA GÜNÜNÜN QEYD EDİLMƏSİ" ADLI TƏDBİR

# MOSAIC OF UNITY IN THE NON-ALIGNED MOVEMENT YOUTH ORGANIZATION: AFRICA DAY CELEBRATION EVENT HELD

Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşəbbüsü ilə 2024-cü il mayın 24-də təşkilatın Bakıdakı mənzil-qərargahında Afrika Gününə həsr olunmuş mədəni mübadilə tədbiri keçirilmişdir. Qoşulmama Hərəkatına (QH) üzv dövlətlərin gəncləri arasında mədəni həmrəyliyi və müxtəlifliyi təşviq etmək məqsədi daşıyan bu tədbirdə QH-yə üzv dövlətlərdən olan gənclər, eləcə də Azərbaycandan olan yerli gənclər iştirak etmişlər.

Tədbir QHGT-nin Baş katibi Nigar Bağırlının çıxışı ilə başlamışdır. O qeyd etmişdir ki, əsas məqsəd gəncləri Afrikanın rəngarəng və qədim mədəniyyəti haqqında məlumatlandırmaq, mədəni həmrəylik və müxtəlifliyin təbliğ olunmasıdır.

Azərbaycanda yaşayan afrikalı gənclər Afrika Gününün əhəmiyyəti və Afrika qitəsinin zəngin mədəni irsi haqqında müxtəlif təqdimatlar, mahnı və rəqslər nümayiş etdirmişlər, iştirakçılar milli mətbəx nümunələri ilə tanış olmuşlar. Bununla yanaşı, sual-cavab xarakterli oyun da keçirilmiş, qalib iştirakçılara QHGT tərəfindən hədiyyələr təqdim edilmişdir.

Müxtəlif Afrika ölkələrindən olan əcnəbi gənclərin tədbirə qatılması daha inklüziv və mədəni birliyin qurulmasında əhəmiyyətli rol oynadı. Xəzər Universitetini təmsil edən Abebe Gule Girma, Fatima Schroeder, Emmanuella Ofori və Fudia Turay da tədbirə öz töhfələrini vermişlər.

At the initiative of the Non-Aligned Movement Youth Organization (NAMYO), a cultural exchange event celebrating Africa Day was held on May 24, 2024, at the organization's Baku headquarters. Young people from NAM member states and local youth from Azerbaijan took part in the event, which aimed to promote cultural solidarity and diversity among the youth of NAM member states. The event commenced with a speech by Nigar Bagırli, the general secretary




*Fudia Turay*

of the Non-Aligned Movement Youth Organization. She emphasized that the primary goal was to acquaint young people with Africa's vibrant and ancient culture and to encourage cultural solidarity and diversity.

African youths residing in Azerbaijan gave various presentations, performed songs and dances highlighting the significance of Africa Day and the rich cultural heritage of the African continent, and introduced participants to samples of traditional cuisine. Additionally, a question-and-answer game was organized, with prizes awarded to the winning participants by NAMYO.

The involvement of foreign youth from various African countries was crucial in fostering a more inclusive and culturally diverse union. Abebe Gule Girma, Fatima Schroeder, Emmanuella Ofori, and Fudia Turay from Khazar University also contributed to the event.

# TƏLƏBƏLƏR ELM VƏ TƏHSİL NAZİRLİYİNİN GENETİK EHTİYATLAR İNSTİTUTUNDA

# STUDENTS AT GENETIC RESOURCES INSTITUTE OF THE MINISTRY OF SCIENCE AND EDUCATION



Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin Biologiya müəllimliyi ixtisası üzrə təhsil alan II kurs tələbələri Həyat elmləri departamentinin müdiri Cəmalə Eldarovanın rəhbərliyi ilə 2024-cü il mayın 17-24-də AR ETN Genetik Ehtiyatlar İnstitutuna (GEİ) səfər ediblər.

Tələbələr GEİ-nin Ekobotanika və sistematika, Molekulyar sitogenetika, Biokimyəvi genetika və texnologiya şöbələrində, Rüşeym plazma laboratoriyasında, həmçinin institutun nəzdindəki təcrübə sahəsində aparılan elmi tədqiqat işləri və onların nəticələrinin istehsalatda tətbiq olunması haqqında ətraflı məlumatlanıblar, müvafiq cihaz və avadanlıqlarla tanış olublar.

Biokimyəvi genetika və texnologiya şöbəsinin müdiri, biologiya elmləri doktoru Hamlet Sadıqov tələbələrə əhəmiyyətli kənd təsərrüfatı bitkiləri, buğda dəninin endospermində qliadin və qlütenin ehtiyat zülallarının elektroforetik analizləri, polimorfizmin müəyyən edilməsi haqqında geniş məlumat verib, onları təcrübə sahəsi ilə tanış edib.

From May 17-24, second-year Biology Education students from Khazar University's School of Science and Engineering visited the Genetic Resources Institute (GRI) of the Ministry of Science and Education of the AR, under the supervision of Jamala Eldarova, head of the Life Sciences Department.

The students were given detailed information about the scientific research conducted in the "Ecobotany and Systematics," "Molecular Cytogenetics," and "Biochemical Genetics and Technology" departments, as well as in the "Embryo Plasma Laboratory" and the institute's experimental field, including the practical applications of these research results. They also familiarized themselves with the relevant devices and equipment.

Hamlet Sadigov, head of the "Biochemical Genetics and Technology" department and doctor of biological sciences, provided extensive information about significant agricultural plants, the electrophoretic analysis of gliadin and gluten reserve proteins in wheat grain endosperm, and polymorphism determination, and introduced them to the practical field.

Aparıcı elmi işçi İlhamə Mirzəliyeva tələbələrə Mərkəzi məlumat bazası, böyük elmi işçi Elnurə Cəfərova isə genbanka daxil olmuş bitki toxum nümunələrinin qeydiyyatı, bərpası, mübadiləsi, cücərmə qabiliyyətinin yoxlanılması və s. barədə danışıblar.

Ekobotanika və sistematika şöbəsinin elmi işçisi Kəmalə Əsədova tələbələri institutun Herbari fondu ilə tanış edərək, Azərbaycanın müxtəlif bölgələrinə təşkil edilən ekspedisiyalar zamanı mədəni bitkilərin yabanı əcdadlarının toplanılması barədə ətraflı məlumatlandırıb. Molekulyar sitogenetika şöbəsində isə şöbənin kiçik elmi işçisi Rəhim Rəhimov tələbələri sitogenetik analiz metodları və xromosom preparatlarının hazırlanma qaydaları ilə tanış edib.

Leading researcher Ilhama Mirzaliyeva discussed the Central Database, while senior researcher Elnura Jafarova explained the registration, restoration, exchange, and verification of plant seed sample germination capacity in the gene bank.

Kamala Asadova, a scientific worker in the "Ecobotany and Systematics" department, introduced the students to the institute's Herbarium fund and detailed the collection of wild ancestors of cultivated plants during expeditions to various regions of Azerbaijan. In the "Molecular Cytogenetics" department, junior researcher Rahim Rahimov introduced the students to cytogenetic analysis methods and the procedures for preparing chromosome preparations.

# MİŞKOLÇ UNİVERSİTETİNİN DOKTORANTI ZİYA MEHDİYEVLƏ GÖRÜŞ

# MEETING WITH MISKOLC UNIVERSITY DOCTORAL STUDENT ZIYA MEHDIYEV

Mayın 24-də Macarıstanın Mişkolç Universitetinin doktorantı Ziya Mehdiyevlə görüş keçirilib. Ziya Mehdiyev 2023-2024-cü ilin yaz semestrı üzrə Erasmus+ Tələbə heyətinin mübadilə proqramı (Erasmus KA171) çərçivəsində doktorantura təhsili sahəsində tədqiqat işləri aparmaq üçün Xəzər Universitetindəki mübadilə proqramında iştirak edib.

Görüşdə Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və şöbənin koordinatoru Əli Mirzəzadə iştirak ediblər.

Görüş çərçivəsində Ziya Mehdiyevlə ümumi tanışlıqdan sonra onunla Erasmus+ Tələbə heyətinin mübadilə proqramı barəsində qarşılıqlı fikir mübadiləsi aparılıb və gələcək əməkdaşlıq müzakirə edilib. Sonra isə Ziya Mehdiyev Xəzər Universitetində proqram çərçivəsində apardığı tədqiqat işləri ilə bağlı məlumat verib.

On May 24, a meeting was held with Ziya Mehdiyev participated in the exchange program at Khazar University for the spring semester of 2023-2024 to conduct research in the field of doctoral studies under the Erasmus+ student exchange program (Erasmus KA171).

The meeting was attended by Fakhranda Efendiyeva, the dean of Khazar University's School of Science and Engineering, Fatima Valiyeva, the head of the International Relations Office, and Ali Mirzazade, the coordinator of the International Relations Office.

The gathering included an introduction to Ziya Mehdiyev, followed by a discussion on the Erasmus+ student staff exchange program and potential future collaborations. Ziya Mehdiyev then presented details about his research conducted at Khazar University as part of the program.



*Ahmet Tecim* *Orxan Vəliyev*

# DEPARTAMENT MÜDİRİ GƏNCLİYƏ YARDIM FONDUNDA

Mayın 25-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev Gəncliyə Yardım Fondunda "Cümhuriyyət və milli kimlik" mövzusunda seminar keçirib.

Seminarı Fondun mətbuat xidmətinin rəhbəri Qoşqar Abbaslı açıb. Dr. Orxan Vəliyev Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, Cümhuriyyətin mövcud olduğu dövr, müstəqil Azərbaycanda milli kimlik və digər məsələlər barədə danışıb.

Təqdimatdan sonra departament müdiri ona ünvanlanan sualları cavablandırıb. Seminar Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim`in Dr. Vəliyevə hədiyyə təqdimatı ilə yekunlaşıb.

# DEPARTMENT HEAD AT YOUTH ASSISTANCE FOUNDATION

On May 25, Dr. Orkhan Valiyev, head of the Department of Political Science and Philosophy of Khazar University, held a seminar on "Republic and national identity" at the Youth Assistance Foundation.

The seminar was opened by the head of the foundation's press service Goshgar Abbasli. Dr. Orkhan Valiyev spoke about the establishment of the Azerbaijan Democratic Republic, the period of existence of the Republic, national identity in independent Azerbaijan and other issues.

After the presentation, the head of the department answered the questions addressed to him. The seminar ended with a presentation of a gift to Dr. Valiyev by Ahmet Tecim, the president of the Youth Assistance Foundation.





# UYĞUR YAZAR VƏ TÜRKİYƏLİ ALİMLƏ GÖRÜŞ



*Aynur Qəzənfərqızı, Rafiq Həşimov (AZTV), Abduşükür Qumtur, Dilşad Mirzoyeva (AZTV), Münəvvər Sultan*

# MEETING WITH UYGHUR WRITER AND TURKISH SCIENTIST

Mayın 27-də Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) təşkilatçılığı ilə "Yaşıl Dünya Naminə Həmrəylik İli" çərçivəsində "Uyğur Ədəbiyyatında ekopoetika" adlı tədbir keçirilib. Tədbiri Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru Dos. Aynur Qəzənfərqızı giriş sözü ilə açaraq, qonaqlar haqqında məlumat vermişdir.

Dünya Uyğur Yazarlar Dərnəyinin sədri Abduşükür Qumtur uyğurların tarixi və ədəbiyyatı barədə məlumat verib, sonra ədəbiyyatda ekopoetikanın rolundan danışıb.

Türkiyə Böyük Millət Məclisinin vəkili, folklorşünas alim Prof. Metin Ergun öz çıxışında uyğurların siyasi tarixindən bəhs edib və onların uğradığı soyqırımından bəhs edib.

Tədbirdə universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Zəminə Ziyayeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan əvəzi Aygün Verdiyeva, dekan müavini Pərvin Kərimova və AMEA Folklor İnstitutunun əməkdaşı Aynurə Səfərova, həmçinin İsveçdən gəlmiş uyğur əsilli Münəvvər Qumtur və Hacı Bayram Veli Universitetinin professoru Pervin Ergun da iştirak ediblər.

Sonda qonaqlar tələbələrin suallarını cavablandırıblar.

On May 27, Khazar University's Institute of Cultural Anthropology and Folklore (ICAF) hosted an event titled "Eco-Poetics in Uyghur Literature" as part of the "Year of Solidarity for the Green World." Assoc. Prof. Aynur Gazanfargizi, the coordinator of ICAF, opened the event with an introduction and provided information about the guests. Abdushukur Gumtur, chairman of the World Uyghur Writers' Association and a guest at the event, spoke about Uyghur literature and the significance of eco-poetics within it.

Following this, Metin Ergun, a lawyer from the Grand National Assembly of Türkiye and a folklorist, delivered a speech on the political history of the Uyghurs and the genocide they have endured.

The event was also attended by Dr. Zamina Ziyayeva, a lecturer in the Department of Languages and Literatures; Aygun Verdiyeva, the acting dean of the School of Humanities, Education and Social Sciences; deputy dean Parvin Karimova; and Aynura Safarova, an employee of the ANAS Folklore Institute. Additionally, Munavvar Gumtur, Uyghur origin guest from Sweden, and Pervin Ergun, a professor at Haji Bayram Veli University, were present. After the speeches, students adressed interesting questions to the guests. The event concluded with a memory photo.

# TƏLƏBƏLƏR ELMİ-PRAKTİK KONFRANSDA

Mayın 27-də Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında Tələbə Elmi Cəmiyyətinin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr etdiyi "Azərbaycanda kiçik və orta biznesə dövlət dəstəyi, onun inkişaf meylləri" mövzusunda bakalavr və magistrantların respublika elmi-praktik konfransı keçirilib. Konfransda ölkənin 8 ali təhsil müəssisəsindən 70 tələbənin elmi məruzəsi dinlənilib.

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Dr.Yaqub Məmmədovun elmi rəhbərliyi ilə Humanitar, təhsil və sosial elmlər fakültəsinin

Tarix müəllimliyi ixtisasında təhsil alan beş tələbəsi konfransda təmsil olunub. III kurs tələbələri Minurə Cavadova "Gülüstan müqaviləsi", Nərmin Həsənova "Ermənilərin Azərbaycan xalqına qarşı soyqırım siyasəti", Xani Əmirli "Xocalı soyqırımı" və II kurs tələbələri Könül İbrahimli "Böyük şəxsiyyət-Ziya Bünyadov", Leyla Əliquliyeva isə "Görkəmli tarixçi-Sara Aşurbəyli" mövzularında çıxış ediblər. Onlara maraqlı elmi məruzələrinə görə sertifikat verilib.

# STUDENTS AT SCIENTIFIC-PRACTICAL CONFERENCE

On May 27, the Azerbaijan Academy of Labour and Social Relations hosted the Republican scientific-practical conference for bachelor's and master's students on the topic "State Support for Small and Medium Business in Azerbaijan: Development Trends," dedicated to the 101st anniversary of national leader Heydar Aliyev. The conference featured scientific presentations from 70 students representing eight higher education institutions across the country. Five "History Education" students from the School of Humanities, Education and Social Sciences, under the scientific guidance of Dr. Yagub Mammadov, a lecturer in the Department of History and Archeology, participated in the conference. Third-year students Minura Javadova, Narmin Hasanova, Khani Amirli, and second-year students Konul Ibrahimli and Leyla Aliguliyeva delivered successful presentations on the following topics: "Gulistan Treaty," "Genocide Policy of Armenians Against the People of Azerbaijan," "Khojaly Genocide," "Great Personality - Ziya Bunyadov," and "Prominent Historian - Sara Ashurbeyli," respectively. The students were awarded certificates for their engaging scientific reports.



*Minurə Cavadova, Leyla Əliquliyeva, Nərmin Həsənova, Yaqub Məmmədov, Könül İbrahimli, Xani Əmirli*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ III TÜRK DÜNYASI ƏDƏBİYYAT VƏ KİTAB FESTİVALINDA

## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD AT THIRD TURKISH WORLD LITERATURE AND BOOK FESTIVAL




Mayın 24-31-də Bakıda keçirilən III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında "Tarixdən günümüzə türklərin cahanşümul yürüşü" panelində Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu "İstanbulun fəthi və Türk cahan hakimiyyəti məfkurəsi" mövzusunda məruzə edib.

From May 24 to 31, Assoc. Prof. Telman Nusratoghlu, head of the Department of History and Archeology, delivered a speech titled "Conquest of Istanbul and the Ideology of the Turkish World Power" at the panel "Global March of Turks from History to the Present" during the III Turkish World Literature and Book Festival in Baku.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ TƏLİMLƏR KEÇİRİB

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2024-cü il mayın 6-da 284 nömrəli, mayın 13-də 132-134 nömrəli, mayın 14-də 109 nömrəli tam orta məktəblərin yuxarı sinif şagirdləri, mayın 15-də Bakı Slavyan Universitetinin tələbələri, mayın 24-də 289 nömrəli "Zəngi" liseyinin və mayın 31-də 271 nömrəli tam orta məktəbin şagirdləri üçün təlimlər keçirib.

Təlimlər Elm və Təhsil Nazirliyinin dəstəyi və "Bir Könüllü" Tələbə Təşkilatının "Milli Kimlik Məktəbi" layihəsi (22 aprel - 31 may) çərçivəsində baş tutmuşdur.

Layihənin məqsədi gənclər arasında milli kimlik şüurunun möhkəmlənməsinə töhfə verməklə yanaşı, gəncləri radikal meyillərdən uzaqlaşdırmaq və milli kimliyin müxtəlifliklərin toplamından ibarət olduğu fikrini aşılamaqdır.

Təlimlərin sonunda şagirdlərlə milli şüurun mənimsənilməsinə dair interaktiv oyunlar, sual-cavab sessiyaları və digər müvafiq tədbirlər də təşkil olunub.

## POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD CONDUCTS TRAINING SESSIONS

In MayDr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy, conducted training sessions on several dates: May 6 for senior students at secondary school No. 284, May 13 at school No. 132-134, May 14 at school No. 109, May 15 for students of Baku Slavic University, and May 24 for students of "Zangi" Lyceum No. 289.

These training sessions were part of the "National Identity School" project (April 22 - May 30), supported by the Ministry of Science and Education and the "One" Voluntary Student Organization.

The purpose of the project is to strengthen national identity awareness among young people, steer them away from radical tendencies, and promote the idea that national identity encompasses a range of diversities.

At the end of the training sessions, students participated in interactive games, question-and-answer sessions, and other activities focused on understanding national consciousness.




*Bakı Yunus Əmrə İnstitutunun direktoru Selcuk Karakılıç, Aziz Sancar, Əlövsət Əmirbəyli*

# TÜRK DÜNYASININ NOBEL MÜKAFATÇISI PROF. DR. AZİZ SANCARLA GÖRÜŞ

Mayın 31-də Xəzər Universitetinin tələbələri, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar Bakı Yunus Əmrə İnstitutunda təşkil olunan Nobel mükafatçısı Prof.Dr. Aziz Sancarla görüşdə iştirak ediblər.

Görüşdə Aziz Sancar gənclərə məsləhətlər verib, onları maraqlandıran sualları cavablandırıb. Xəzər Universitetinin tələbələri sual - cavabda aktiv iştirak edərək, alimlə maraqlı fikir mübadiləsi aparıblar. Aziz Sancar sahib olduğu elmi nailiyyətin çalışqanlıqla bağlı olduğunu deyərək, "əgər iddialı bir bilik insanı olmaq istəyirsinizsə, çox çalışmalı olacaqsınız" söyləyib və "bunun başqa çarəsi yox" - deyib.

# MEETING WITH PROF. DR. AZIZ SANCAR, FIRST NOBEL LAUREATE FROM THE TURKISH WORLD

On May 31, students of Khazar University, Director of Public Relations and Media Alovsat Amirbeyli, as well as Director of Physics and Electronics Department Farida Tatardar participated in a meeting with Nobel laureate Prof. Dr. Aziz Sanjar organized at Baku Yunus Emre Institute. At the meeting organized by the Yunus Amre Institute, Aziz Sanjar gave advice to young people and answered their questions. Khazar University students actively participated in the question-and-answer session and exchanged interesting ideas with the scientist. Aziz Sanjar emphasized that his scientific success is due to diligence, stating, "If you want to be an ambitious scholar, you must work hard" and added "there is no other way."



*Fəridə Tatardar*

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA

Mayın 30-31-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin şifahi tərcümə dərsləri müəllimi və universitetdə fəaliyyət göstərən "Tərcümə mərkəzi"nin koordinatoru Dr. Elvin Abbasbəyli Özbəkistanın Xivə şəhərində yerləşən Məmun Universitetində keçirilən "Xarici dillərin tədrisinin müasir metodları, dilçilik, ədəbiyyatşünaslıq və tərcüməşünaslığın problemləri" adlı beynəlxalq elmi kondransda iştirak edib. O, konfransda"Beynəlxalq təşkilatlarda konfrans tərcüməçilik və diplomatik tərcümə fəaliyyətləri" mövzusunda məruzə ilə çıxışıb edib.

Tədbirdə Özbəkistan, Rusiya və ABŞ-dan olan tədqiqatçılar öz araşdırma sahələri ilə bağlı məruzələr təqdim ediblər.

Bir gün sonra isə Məmun Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Bahrom Yuldaşev Elvin Abbasbəyli ilə görüş keçirib. Görüşdə o, azərbaycanlı alimlə şifahi tərcümə sahəsində gələn tədris ilindən Məmun Universitetinin ingilis dili fakültəsinin seçilmiş müəllimləri üçün mütəmadi olaraq ustad dərslərinin təşkil edilməsi layihəsi haqqında müzakirələr aparıb və Xəzər Universiteti ilə əməkdaşlıq etmək üçün memorandumun imzalanması arzusunda olduqlarını vurğulayıb.



*Elvin Abbasbəyli*

# ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT INSTRUCTOR AT INTERNATIONAL CONFERENCE

On May 30-31, Dr. Elvin Abbasbeyli, an oral translation instructor in the Department of English Language and Literature at Khazar University and coordinator of the University's Center for Translation and Interpretation, attended the international scientific conference "Modern Methods of Teaching Foreign Languages, Problems of Linguistics, Literary Studies, and Translation Studies" at Mamun University in Khiva, Uzbekistan. He delivered a speech on "Conference Interpreting and Diplomatic Interpretation Activities in International Organizations". Researchers from Uzbekistan, Russia, and the United States also presented their findings at the event. The following day, Bahrom Yuldashev, vice-rector for international relations at Mamun University, met with Elvin Abbasbeyli. During their meeting, they discussed the project of regularly organizing master classes in oral translation for selected English language faculty members at Mamun University starting next academic year, and expressed a desire to sign a memorandum of cooperation with Khazar University.

## ÖLKƏDƏ İLK DƏFƏ NDU-DA TİBB İXTİSASI ÜZRƏ SABAH QRUPUNUN TƏQDİMATI OLUB



*Elbrus İsayev*

Tədbirdə NDU-nun rektoru Elbrus İsayev bildirib ki, ölkəmizdə ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Universitetində Tibb ixtisası üzrə SABAH qruplarının təqdimatının keçirilməsi mütərəqqi haldır. Çox şadıq ki, bu gün ölkəmizin qabaqcıl bir proqramının layihəsi əlamətdar bir ildə - Naxçıvan Muxtar Respublikasının 100 illiyi, Tibb fakültəmizin 25 illiyi və SABAH qruplarının 10 illiyində məhz tibb ixtisasına şamil olundu. Naxçıvan Dövlət Universitetində belə bir proqramın fəaliyyətə başlaması muxtar respublikamızın gələcəkdə peşəkar həkim mütəxəssisləri ilə təmin olunmasına öz töhfəsini verəcək. Ümidvarıq ki, yüksək balla universitetə qəbul olmuş tələbələrimiz tədris ilində göstərdikləri yüksək nəticələrə görə həmin qruplarda təhsil almaq imkanı qazanacaqlar.

Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini, nazir vəzifələrini icra edən Elxan Nəcəfov ölkəmizdə təhsilin inkişafına göstərilən qayğıdan danışıb.

SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədova qeyd edib ki, SABAH qrupları Azərbaycan ali təhsil sistemində qabaqcıl dünya təcrübəsini paylaşmaq üçün yaradılmış bir layihədir. Ümid edirəm ki, Naxçıvanda gələcəkdə açılacaq tibb kompleksində, həm də dünya təcrübəsinin NDU-nun tibb sahəsinə gətirilməsinə töhfəsini verəcəkdir. Qonşu ölkələrlə, xüsusilə Türkiyə Respublikasının tibb sahəsi üzrə qabaqcıl universitetləri ilə birlikdə bağlanmış əməkdaşlıq müqavilələri, həkimlərin burda tədrisini davam etdirməsi, tələbələrin təcrübələrini digər araşdırma universitetlərində aparması və o universitetlərin qabaqcıl təcrübəsinin də universitetə gətirilməsinə şərait yaradacaq.



*Elza Səmədova*

Tibb fakültəsinin dekanı İlhamə Mustafayeva bildirib ki, bu il Tibb fakültəsinin 25 ili tamam olur. 1999-cu ildə sadəcə pediatriya ixtisası üzrə 25 nəfər tələbə ilə fəaliyyətə başlayan tibb fakültəsi bu gün artıq istər Azərbaycanımız üçün, istər onun hüdudlarından kənarda əhali üçün ixtisaslı tibb kadrların yetişdirilməsi yolunda mühüm addımlar atır. Gələcəkdə SABAH qruplarında təhsil alan tələbələrin tədris metodlarının tətbiqi sahəsində və onların tədqiqat üsullarının genişləndirilməsi sayəsində biz həm tədqiqatçı, həm araşdırmaçı, həm də yüksəkixtisaslı tibbi kadrların yetişdirilməsinə nail olacağıq.

Tədbirdə tibb ixtisası üzrə 1-ci kurs tələbəsi, Prezident təqaüdçüsü İnci Fərəcova universitetdə yaradılan tədris şəraitindən, gənclərə göstərilən qayğıdan danışıb.

Tədbir bədii hissə ilə davam edib.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN MÜƏLLİMİNİN KRİSTAL DUZUNDAN HAZIRLADIĞI QADIN ZİNƏT ƏŞYASI PATENTƏ LAYİQ GÖRÜLÜB



*Əzizə Məmmədova*

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının müəllimi Əzizə Məmmədovanın kristal Naxçıvan duzundan və Himalay duzundan hazırladığı üzük Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi tərəfindən patentə layiq görülüb.

Əzizə Məmmədovanı bu münasibətlə təbrik edir, fəaliyyətində uğurlar arzulayırıq.









# NOBEL MÜKAFATÇISI ƏZİZ SANCAR NDU-DA

*Əziz Sancar, Elbrus İsayev*

Naxçıvan Dövlət Universitetində dünya şöhrətli alim, kimya üzrə Nobel mükafatı laureatı Əziz Sancarla görüş keçirilib.

Görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Türk qardaşlığını əziz tutan, Azərbaycanı öz ölkəsi qədər sevən Əziz Sancarı ali təhsil ocağında görməkdən məmnunluğunu ifadə edib.

Rektor bugünkü görüşü ali təhsil ocağının tarixində əlamətdar hadisə kimi qiymətləndirib: "Əziz Sancar şəxsiyyəti elm sahəsində Nobel mükafatı alan ilk türk alimi kimi bizim üçün çox əzizdir".

Elbrus İsayev qeyd edib ki, Əziz Sancar Qarabağ Zəfərini Türkiyə qurtuluş savaşından sonra türk xalqının ikinci böyük qələbəsi kimi dəyərləndirib. Xatırladıb ki, Prezident İlham Əliyevin 2021-ci il 10 sentyabr tarixli Sərəncamı ilə Nobel mükafatçısı, görkəmli alim "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Rektor rəhbərlik etdiyi universitetin qardaş Türkiyə universitetləri ilə qurulan əməkdaşlıq əlaqələrindən söz açıb: "Türkiyənin 80-ə yaxın universitetləri ilə əlaqələrimiz mövcuddur. Universitetdə 2000-ə yaxın türkiyəli tələbə təhsil alır".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli bu auditoriyada Nobel mükafatçısı Əziz Sancarla görüşməkdən duyduğu sevinc hissini ifadə edib. Akademik görüşü Azərbaycan-Türkiyə elmi, mədəni əlaqələrində möhtəşəm hadisə kimi dəyərləndirib.

Əziz Sancar hər kəsi salamlayaraq, Azərbaycana olan sonsuz sevgisindən danışaraq, buranı öz vətəni kimi sevdiyini vurğulayıb.

"Türk dünyasının birliyini görmək istəyirəm. Bu, mənim ən böyük arzum olub", - deyən Əziz Sancar Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbəni bütün Türk dünyasının zəfəri hesab edib.

Nobel mükafatçısı alim istənilən uğurun qazanılmasında yalnız zəhmət və fədakarlığın durduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, texnologiya nə qədər müasir dövrümüzə nüfuz etsə də, amma insanların təməl elmləri öyrənməsi daha vacibdir. "Eyni zamanda, bütün elmlərin əsasında insanlıq durmalı, oxuduğun, tətbiq etdiyin elm sahəsi bütün insanlığa faydalı olmalıdır", - deyə dəyərli alim öz tövsiyələrini auditoriyaya ünvanlayıb.

Nobel mükafatçısı Əziz Sancar tələbələrin suallarını cavablandırıb.

Görkəmli alim universitetin professor-müəllim heyəti adından mükafatlandırılıb.

Universitet Elmi Şurasının Nobel mükafatçısı Əziz Sancarın adına təsdiq etdiyi tələbə təqaüdü görkəmli alimin iştirakı ilə Tibb fakültəsinin III kurs tələbəsi Nəzrin Həsənovaya təqdim edilib.

Qeyd edək ki, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya da görüşdə iştirak edib.

# “FİZİKANIN AKTUAL PROBLEMLƏRİ” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS



*Arif Həşimov*

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunan “Fizikanın aktual problemləri” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Konfransda çıxış edən ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev qonaqları və iştirakçıları salamlayaraq qeyd edib ki, ali təhsil ocağında bakalavr üzrə “Fizika” və “Fizika müəllimliyi”, magistratura üzrə “Fizika fənninin tədrisi, metodikası və metodologiyası”, “Yarımkeçiricilər fizikası”, doktorantura üzrə isə “Nəzəri fizika”, “Yarımkeçiricilər fizikası”, “Bərk cisimlər fizikası” ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir. Elbrus İsayev bu ixtisaslar üzrə təhsil alan tələbələrin müvafiq laboratoriyalarda keçdikləri təcrübi dərslərin əhəmiyyətindən danışıb.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun baş direktoru Arif Həşimov çıxış edərək qeyd edib ki, konfransın proqramı olduqca zəngindir. Konfransa təqdim olunan məruzə və çıxışların xüsusən fizikanın aktual problemlərinin həlli üçün qarşıda duran məsələlərdə alim və tədqiqatçıları yeni ideyalara istiqamətləndirə biləcəyinə əminəm.

Konfransda Fizika elmləri doktoru, professor Adilə Abbasovanın “Laylı kristallarda radiasiya effektləri”, Naxçıvan Dövlət Universitetinin Elektroenergetika mühəndisliyi kafedrasının dosenti Validə Hacıyevanın “Yarımkeçirici nazik təbəqələrdə ifrat keçiriciliyin elektron-fonon mexanizmi” mövzularında məruzələri dinlənilib.



Konfransa onlayn şəkildə qoşulan Türkiyənin Qazi Universitetinin professoru Cengiz Taplamacaoğlu, Danimarka Elmi Tədqiqat Mərkəzinin professoru Naser Tabatabei, Meksika Nüvə Tədqiqatları Mərkəzinin professoru Natiq Atakişiyev və Rusiya Federasiyası Dubna şəhərinin Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun professoru Yevgeniy Yakushyevin çıxışları dinlənilib.

Konfransın plenar iclasının sonunda qarşılıqlı hədiyyələr təqdim olunub.

Qeyd edək ki, konfrans 2 bölmədə öz işini davam etdirib.

Məlumat üçün onu da bildirək ki, Fizika İnstitutunun əməkdaşları konfrans çərçivəsində Fizika-Riyaziyyat və Memarlıq-Mühəndislik fakültələrinin tələbələrinə ustad dərsləri keçiblər. Bununla yanaşı, “Naxçıvan Dövlət Universiteti və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutu arasında əməkdaşlığın aspektləri” mövzusunda dəyirmi masa təşkil olunub.

**Səadət Əliyeva**
*NDU Media və ictimaiyyətlə əlaqələr bölməsi*

## "XƏZƏR"İN ƏCNƏBİ TƏLƏBƏSİ ERASMUS TƏLƏBƏ ŞƏBƏKƏSİNİN ÜMUMİ ASSAMBLEYA GÖRÜŞÜNDƏ




*Abdullahi Aduagba Yahaya*

## KHAZAR UNIVERSITY INTERNATIONAL STUDENT IN ERASMUS STUDENT NETWORK GENERAL ASSEMBLY

Mayın 9-13-də Xəzər Universiteti Beynəlxalq Klubunun vitse-prezidenti Abdullahi Aduagba Yahaya Bolqarıstanın paytaxtı Sofiyada keçirilən Erasmus Tələbə Şəbəkəsinin (ETŞ) Ümumi Assambleya görüşündə iştirak edib. Assambleya görüşündə 45 ölkənin ETŞ milli nümayəndələri təmsil olunublar.

ETŞ Avropanın ən böyük tələbə təşkilatlarından biridir. Ümumi Assambleya görüşü ETŞ-nin əsas qərar qəbul edən orqanıdır. Təşkilatın fəaliyyətləri ilə əlaqəli önəmli məsələlərin müzakirə və səsverməsi məhz bu görüş nəticəsində həyata keçirilir.

Abdullahi Aduagba Yahaya ümumi sessiyalarda aktiv iştirakı nəticəsində kiçik sessiya zamanı qrup rəhbəri kimi təyin olunub. O, ETŞ-nin Beynəlxalq İdarə Heyəti üzvləri ilə klubun inkişafı məsələsini müzakirə edib. Beynəlxalq İdarə Heyəti üzvləri Xəzər Universiteti Beynəlxalq Klubunun fəaliyyətini yüksək qiymətləndirib və klub üzvlərinin Yunanıstanın Selanik şəhərində keçiriləcək Payız assambleya görüşündə iştirakları nəzərdə tutulub.

Tədbirin son günündə hədiyyə və suvenirlər təqdim olunub.

From May 9-13, Abdullahi Aduagba Yahaya, Vice President of the Khazar University International Club, attended the General Assembly meeting of the Erasmus Student Network (ESN) in Sofia, Bulgaria. The assembly included ESN national representatives from 45 countries.

ESN is one of Europe's largest student organizations, and its General Assembly is the primary decision-making body, where key issues concerning the organization's activities are discussed and voted upon. Due to his active involvement in the general sessions, Abdullahi Aduagba Yahaya was appointed group leader during the junior session.

In Sofia, the Khazar University International Club Vice President, along with the ESN International Board of Directors, discussed the club's development and upcoming steps as a new local session. The International Board highly appreciated the activities of the Khazar University International Club and confirmed their participation in the Fall assembly meeting in Thessaloniki, Greece.

On the last day of the event, the vice president of the Khazar University International Club presented gifts and souvenirs to the members and representatives of the International Board of Erasmus Student Network.

# XƏZƏR UNİVERSİTETİ İNKİŞAF MƏRKƏZİNİN DİREKRORU “UNİVERSİTETLƏRİN ÜÇÜNCÜ MİSSİYASI: SOSİAL VƏ İQTİSADİ İNKİŞAF ÜÇÜN TƏRƏFDAŞLIQ” MÖVZUSUNA HƏSR OLUNMUŞ BEYNƏLXALQ SEMİNARDA

# DEVELOPMENT DIRECTOR OF KHAZAR UNIVERSITY PARTICIPATED IN AN INTERNATIONAL SEMINAR ON 'THE THIRD MISSION OF UNIVERSITIES: PARTNERSHIP FOR SOCIAL AND ECONOMIC DEVELOPMENT'

Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva mayın 13-14-də universitetlərin üçüncü missiyası: sosial və iqtisadi inkişaf üçün tərəfdaşlığa həsr olunmuş SPHERE seminarında iştirak etmişdir. SPHERE Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Ali Təhsildə İslahatlar Ekspertləri (ATİE) şəbəkəsinə mərkəzləşdirilmiş bir dəstəkdir. ATİE şəbəkəsi 2007-ci ildə Qərbi Balkanlar, Orta Asiya, Şərq tərəfdaşlığı və Cənubi Aralıq dənizi bölgəsi də daxil olmaqla AB ilə həmsərhəd olan üçüncü ölkələrdə ali təhsilin modernləşdirilməsini təşviq etmək üçün yaradılmışdır.

Bu dəfə seminar Özbəkistanın Səmərqənd şəhərindəki “İpək Yolu” Beynəlxalq Turizm və Mədəni İrs Universiteti tərəfindən keçirilib. Seminar universitetlərin 3-cü missiyasına həsr olunmuş və bölgənin hər yerindən, eləcə də İtaliya və Belçika kimi Qərb ölkələrindən çoxsaylı nümunə araşdırmalarını əhatə etmişdir. Seminarda üçüncü missiyanın cəmiyyət və iqtisadiyyatla dərin əlaqəsini əhatə edən inklüziv konstruksiya olmasının səbəbləri və yolları geniş müzakirə olunub. Bu mövzu ətrafında qurulan plenar müzakirələrdə müxtəlif ölkələrdən və qurumlardan nümunələr nəzərdən keçirilib.

Azərbaycanı Erasmus+ ali təhsil islahatı üzrə ekspert kimi təmsil edən Raziya İsayeva seminarda fəal iştirak edərək, plenar müzakirədə universitetlərin üçüncü missiyasının təşviqi strategiyaları haqqında öz mülahizə və fikirlərini bildirmişdir.

Seminar şəbəkənin maarifləndirilməsi və genişləndirilməsi ilə yanaşı, iştirakçılara tarixi abidələri ilə məşhur olan qədim Səmərqənd şəhərini gəzmək imkanı da verdi. “İpək Yolu” Beynəlxalq Turizm və Mədəni İrs Universiteti təqdim etdiyi tur boyu tələbələrinin diqqətəlayiq nailiyyətlərini, eləcə də infrastruktur və institusional inkişafdakı irəliləyişləri diqqətə çatdırdı.

Razia Isaeva, Director of Development of Khazar University participated in the SPHERE seminar devoted to the universities' third mission: partnering for social and economic development on May 13-14. SPHERE is a Centralised Support to the Network of Higher Education Reform Experts (HERE) financially supported by the European Commission. The Network of Higher Education Reform Experts (HERE) was established in 2007 to facilitate the modernization of higher education in third countries neighboring the EU, including the Western Balkans, Central Asia, Eastern Partnership, and the South Mediterranean Region.

This time the seminar was hosted by the “Silk Road” International University of Tourism and Cultural Heritage in Samarkand, Uzbekistan. The seminar delved into the depth of the 3rd mission of universities and provided multiple case studies from across the region as well as Western countries such as Italy and Belgium. The seminar widely discussed why and how a third mission is an inclusive construct involving a deep engagement with the society and economy. Plenary discussions built around the topic discussed cases of different countries and institutions.

Razia Isaeva joined the seminar as an ERASMUS+ Higher Education Reform Expert representing Azerbaijan actively participated and contributed to the plenary discussion devoted to institutional and national strategies. She articulated her vision and insights on strategies for advancing the third mission of universities.

The seminar provided the awareness and extension of the network, along with a chance to visit and enjoy the ancient city of Samarkand which has astonished every single participant with its historic monuments. Throughout the tour provided to the participants by the “Silk Road” International University of Tourism and Cultural Heritage, the notable accomplishments of its students, as well as the advancements in infrastructure and institutional development, were highlighted.

# 3E-TƏRƏFDAŞLIQ LAYİHƏSİ ÜZRƏ İLK VEBİNAR KEÇİRİLİB

# THE FIRST 3-E PARTNERSHIP PROJECT WEBINAR CONDUCTED

Mayın 16-da 3-E Tərəfdaşlıq Layihəsi çərçivəsində "Şərq Tərəfdaşlığında Enerji Səmərəliliyi: Gürcüstan, Azərbaycan və Ukrayna nümunəsində" adlı onlayn vebinar keçirilib.

Tədbirdə Azərbaycan, Gürcüstan və Ukraynanın müxtəlif qurumlarından 70-ə yaxın nümayəndə iştirak edib. Tələbələr, tədqiqatçılar və siyasətçilər yuxarıda qeyd olunan Şərq Tərəfdaşlığı ölkələrində enerji səmərəliliyi ekosisteminin məzmunu haqqında qısa məlumat əldə ediblər. Gürcüstanın bu sahədə siyasəti, qanunvericilik bazası, praktikası və milli məqsədləri Dr. Margalita Arabidze tərəfindən təqdim olundu. Dr. Giorgi Abulashvili Gürcüstanda enerji səmərəliliyi məsələlərini əhatə edən müxtəlif layihə və təşəbbüslərdən danışdı. Dnepr İnfrastruktur və Nəqliyyat İnstitutunun əməkdaşı Prof. Dmytro Bosyi enerji sektorundakı mövcud mürəkkəblikləri və çətinlikləri diqqətə çatdırdı. Prof. Bosyi`nin vurğuladığı kimi, məlum çətinliyə və Ukraynanın enerji sektoruna davamlı hücuma görə, təkcə ölkənin enerji sistemi bərpa edilməli deyil, həm də yenidən təşkil olunmalıdır. Ukrayna enerji sistemi Avropa sisteminin bir hissəsidir və ona inteqrasiya etməyə davam edir.

Vebinarda daha sonra ADA Universiteti və Xəzər Universitetinin 3-E Tərəfdaşlığı layihə komandasının təqdim etdiyi Azərbaycan nümunəsi müzakirə olundu. Baş elmi işçi Dr. İnarə Yaqubova Azərbaycanda enerji sektorunun inkişafı, enerji tələb və təklifi, milli məqsədlər və fəaliyyət planları ilə bağlı mühüm hadisələri diqqətə çatdırıb.

Bundan əlavə, Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov Azərbaycanda enerji səmərəliliyi üzrə təhsil proqramları, o cüm-

On May 16, the 3-E Partnership Project hosted an energy efficiency webinar titled: Energy Efficiency in the Eastern Partnership: Georgia, Azerbaijan and Ukraine in Focus.

The meeting was attended by about 70 participants from different institutions of Azerbaijan, Georgia and Ukraine. Students, researchers, practitioners and policy implementers were able to get a brief context overview of energy efficiency ecosystem in the above-mentioned Eastern Partnership countries. Georgia's Policies, Legislative Framework, Practices and national Targets were presented by Dr. Margalita Arabidze. Different projects and initiatives covering energy efficiency topics in Georgia were communicated by Dr. Giorgi Abulashvili. Current complexities and challenges in energy sector were highlighted by Prof. Dmytro Bosyi of Dnipro Institute of Infrastructure and Transport. As highlighted by Prof. Bosyi, due to well known hardship and constant attack on Ukraine's energy sector, not only the country's energy system must be recovered, but it should also be reorganized. Ukrainian energy system is part of the European system and its further integration is in progress.

The webinar discussion moved to the context of Azerbaijan, which was presented by the 3-E Partnership Project team from ADA university and Khazar University. Dr. Inara Yagubova, a senior Research Fellow from the ADA university, provided highlights on important developments in Azerbaijan in terms of energy sector development, Energy supply and demand, National Targets and Action Plans. In addition, Dr. Jeyhun Mammadov, the dean of the School of Economics and Management, Khazar University

lədən universitetlərin təhsil proqramları, təlim və peşəkar inkişaf imkanları (xüsusilə Xəzər Universitetində, həm də ölkə daxilində tamamlanmış və davam etməkdə olan) haqqında məlumat verdi.

illustrated the energy efficiency education programs in Azerbaijan, including university degree programs and training/ capacity building opportunities (completed and ongoing, in particular in Khazar University, but also nation wide).

Co-funded by the Erasmus+ Programme of the European Union

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AVROPA TƏRƏFDAŞ UNİVERSİTETLƏRİ İLƏ NÖVBƏTİ ONLAYN GÖRÜŞ

## NEXT ONLINE MEETING WITH EUROPEAN PARTNER UNIVERSITIES WITHIN THE DIRNA PROJECT

Mayın 20-də Xəzər Universitetinin koordinatorluğu ilə "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının inkişafı" DIRNA (Developing Research Capacity through Institutional Repositories Network in Azerbaijan) adlı layihə çərçivəsində növbəti onlayn görüş keçirilib.

Universitetin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayevanın moderatorluğu ilə baş tutan görüşdə onunla bərabər Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova və Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli, eləcə də tərəfdaş Avropa universitetlərinin nümayəndələri - Avropa tərəfdaşları Jyväskylä Universiteti (Finlandiya), Aquila Universiteti (İtaliya), İzmir Texnologiya İnstitutu (Türkiyə) iştirak ediblər.

Görüşdə Gəncə yay məktəbində keçiriləcək təlimlərin mövzuları Avropa universitetləri arasında bölüşdürülüb. Qərara alınıb ki, Azərbaycan tərəfdaş universitetlərindən yay məktəbində iştirak edəcək şəxslər müəyyənləşdirilsin.

On May 20, the next online meeting was held within the framework of the DIRNA project " Developing Research Capacity through Institutional Repositories Network in Azerbaijan " under the coordination of Khazar University.

The meeting, moderated by Raziya Isayeva, the director of Development Office of the University, was attended by Lyudmila Sotova, the director of the Quality Assurance Center, and Aytaj Misgarli, the deputy director of the Library Information Center, as well as representatives of partner European universities - European partners University of Jyväskylä (Finland), Università degli Studi dell'Aquila (Italy) ), Izmir Institute of Technology (Türkiye).

During the meeting, the topics for the trainings at the Ganja summer school were assigned to the European universities. It was decided to identify the participants from the Azerbaijani partner universities for the summer school.

# DÜNYANIN ƏN XOŞBƏXT ŞƏHƏRLƏRİ AÇIQLANDI



Aarus

Böyük Britaniyada yerləşən Həyat Keyfiyyəti İnstitutunun dərc etdiyi "Xoşbəxt Şəhərlər İndeksi" məlumatlarına əsasən, dünyada xoşbəxtlik səviyyəsinin ən yüksək olduğu şəhərlər müəyyənləşib.

İnstitut tərəfindən hər il hazırlanan "Xoşbəxt Şəhərlər İndeksi"nin 2024-cü il məlumatları açıqlanıb.

Qeyd edək ki, qardaş Türkiyənin də 3 şəhəri həmin siyahıda yer alıb.

İlk onluğa daxil olan şəhərlər: Aarus (Danimarka), Sürix (İsveçrə), Berlin (Almaniya), Göteborq (İsveç), Amsterdam (Niderland), Helsinkı (Finlandiya), Bristol (İngiltərə), Kopenhagen (Danimarka), Cenevrə (İsveçrə), Münhen (Almaniya).

Qardaş Türkiyənin siyahıda yer alan 3 şəhəri: İstanbul 197-ci yer, İzmir 222-ci yer, Antalya 246-cı yer.

*https://moderator.az/az/dunya/781811/dunyanin-en-xosbext-seherleri-aciqlandi-siyahi/*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi
* Musiqi müəllimliyi